# Biri general olmaqla, altı nəfər ölüb

### Türkiyədə hərbi helikopter qəzaya uğrayıb



**Türkiyədə hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olanların sayı altıya çatıb.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin yaydığı başsağlığı mətnində deyilir. "İspartada baş verən helikopter qəzasında ağır yaralı olaraq xəstəxanaya yerləşdirilən əməkdaşımızı xilas etmək mümkün olmayıb. O, şəhid olub. Şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və Türk Silahlı Qüvvələrimizə başsağlığı diləyirik", - məlumatda vurğulanıb.

*Qeyd edək ki, helikopterdə şəhid olan hərbçilərdən biri İsparta Quru Aviasiya Məktəbinin komandiri general-mayor İsa Baydillidir.*



## Bələdiyyə seçkilərinə namizədlər

### Müraciət edənlərin sayı 2031-ə çatıb

**Bələdiyyə seçkilərində namizədlik üçün müraciət edənlərin sayı günün sonunadək artıq 2031-ə çatıb.**

Bu barədə Mərkəzi Seçki Komissiyasından məlumat verilib.

Bildirilib ki, bu göstərici 86 seçki dairəsi üzrə 402 bələdiyyəni əhatə edir.



# Masazırda bəzi əraziləri su basıb

### 25 nəfər təxliyə olunub

**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə intensiv yağan yağışlarla əlaqədar Abşeron rayonu, Masazır qəsəbəsində bəzi ərazilərin subasmaya məruz qalması barədə məlumatlar daxil olub.**

FHN-in Mətbuat xidmətindən verilən xəbərə görə, daxil olan məlumatlarla əlaqədar FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin qüvvələri əraziyə cəlb edilib.

Görülmüş tədbirlər nəticəsində subasma ilə əlaqədar evlərini tərk etməkdə çətinlik çəkən 6-sı azyaşlı olmaqla ümumilikdə 25 vətəndaşın təxliyəsi və digər təhlükəsizlik tədbirlərinin görülməsi işləri həyata keçirilib.


№ 226 (6227) 2024-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 dekabr 2024-cü il (çərşənbə axşamı)




# Hikmət Hacıyev İsrail Prezidenti ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrail Prezidenti İsxaq Hersoq ilə görüşüb.**

Bu barədə Azərbaycanın İsraildəki səfirliyi məlumat yayıb.

Görüş zamanı Azərbaycan və İsrail arasında ikitərəfli əməkdaşlıq məsələləri, o cümlədən regional hadisələr müzakirə edilib.

# Ceyhun Bayramov Feridun Sinirlioğlunu təbrik edib

### Xarici işlər naziri TƏT-in yeni Baş katibi ilə telefon danışığı aparıb




**Xarici işlər naziri Ceyhun Bayramov ilə ATƏT-in yeni təyin olunmuş Baş katibi Feridun Hadi Sinirlioğlu arasında telefon danışığı baş tutub.**

XİN-dən verilən xəbərə görə, telefon danışığı zamanı, nazir Ceyhun Bayramov Türkiyə Xarici İşlər Nazirliyində böyük diplomatik təcrübəyə malik səfir Feridun Sinirlioğlunun yekdilliklə ATƏT Baş katibi təyin olunması münasibətilə səmimi təbriklərini çatdırıb, ona davamlı uğurlar arzulayıb.

Azərbaycanın ATƏT ilə əməkdaşlığa verdiyi önəm Baş katibin diqqətinə çatdırılıb.Tərəflər ATƏT çərçivəsində əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri və perspektivləri üzrə fikir mübadiləsi aparıblar.

# Əsədin devrilməsindən sonra daha böyük xaos yaşanacaq

### Suriyanın ərazi bütövlüyü Türkiyənin Suriya siyasətinin əsas sütununu təşkil edir




✓ **Suriyada "Heyət Təhrir əş-Şam" adlı qruplaşmanın Dəməşqi ələ keçirməsindən sonra Başər Əsəd rejimi devrilib.**

O, ailəsi ilə birgə Rusiyaya sığınıb. Əsədin İranda olması ilə bağlı da xəbərlər yayılıb. Qeyd edək ki, 1963-cü ildə Suriyada hakimiyyətə gələn Baas Partiyasının 61 illik hakimiyyəti, 2011-ci ildə azadlıq tələb edən xalq hərəkatlarının zorakılıqla yatırılması ilə yadda qalıb.

Başər Əsədin atası Hafiz Əsəd 1971-ci ildə Suriya prezidenti olub. Türkiyə xarici işlər naziri Hakan Fidan deyib ki, Suriyada yeni dövr başlayıb. XİN başçısı vurğulayıb ki, Türkiyə bundan sonrakı dövrdə müxtəlif etnik qrupların sülh şəraitində və əhatəli idarəetmə anlayışı ilə yaşadığı Suriyanın olmasını ümid edir: "Bunun üçün lazımi dəstəyi verməyə hazırıq. Türkiyə üzərinə düşən hər cür öhdəliyi yerinə yetirməyə hazırdır. Dəməşqdə açılan yeni səhifədə Suriya xalqının yanındayıq. Suriyanın yenidən qurulması üçün lazım olan dəstəyi də verəcəyik". ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp Əsədin sürətlə devrilməsi ilə bağlı təəccübünü bildirib.

(səh.3)

# Ermənistan yarımçıq sülhə nail olmağa can atır

### İrəvan Zəngəzur dəhlizi ilə bağlı imperial dairələrin təlimatlarını icra edir



**"Azərbaycan və Ermənistan arasında sülh prosesi məsələsinə konseptual yanaşmalıyıq.**

Tarixə nəzər yetirsək, görərik ki, ermənilər 1918-ci, 1919-cu illərdə imzaladıqları sənədləri asanlıqla yırtıb atdılar və işğalçılıq, şovinist əməllərinin arxasınca getdilər. Ona görə də yarımçıq sülh bizə lazım deyil".

*Bu sözləri Xəzər Universitetinin Tarix və arexologiya departamentinin müdiri, tarix elmləri doktoru, siyasi şərhçi Telman Nüsrətoğlu deyib.*

(səh.3)



## Beş partiyanın səlahiyyətli nümayəndəsi qeydə alınıb

**Azərbaycanda yanvarın 29-da keçirilməsi qərara alınan bələdiyyə seçkilərində beş partiyanın səlahiyyətli nümayəndəsi qeydə alınıb.**

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında müzakirə aparılıb.

MSK katibi Arifə Muxtarovanın təqdimatına əsasən Yeni Azərbaycan Partiyasının, Milli İstiqlal, Böyük Quruluş, Demokratik İslahatlar və Ümid partiyalarının səlahiyyətli nümayəndələri qeydə alınıb.

Qərar səsverməyə çıxarılaraq MSK üzvləri tərəfindən qəbul edilib.

*Qeyd edək ki, Azərbaycanda bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib.*

## Daha beş ilədək uzadıla bilər

### Bu şəxslər 65 yaşdan sonra işsiz qalmayacaq



**Azərbaycanın 65 yaşına çatmış diplomatik xidmət əməkdaşlarının xidmətdə olma müddəti hər dəfə bir ildən çox olmayaraq beş ilədək uzadıla bilər.**

Bu, yeni hazırlanan "Diplomatik xidmət haqqında" qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan diplomatik xidmət əməkdaşlarının diplomatik xidmətdə olması üçün yaş həddi 65 yaşdır.

Xidmətdə olma müddəti uzadılmış diplomatik xidmət əməkdaşlarının sayı diplomatik xidmət orqanlarının ümumi ştat vahidi sayının 15 faizindən artıq olmamalıdır.

## Azər Qasımlı həbs olunub

### Məhkəmə istintaq orqanının təqdimatını təmin edib



**Siyasi Menecment İnstitutunun direktoru, politoloq Azər Qasımlı barəsində həbs qətimkan tədbiri seçilib.**

Bu barədə vəkil Rövşənə Rəhimli məlumat verib.

Məlumata görə, o, Yasamal Rayon Məhkəməsinin qərarı ilə dörd ay müddətinə həbs olunub.

*Qeyd edək ki, A.Qasımlı dekabrın 8-də saxlanılıb.*

*O, Cinayət Məcəlləsinin 182.2.3-cü (hədə-qorxu ilə tələb etmə-zor tətbiq etməklə törədildikdə) maddəsi ilə təqsirli bilinir.*



## Əsəd rejiminin devrilməsi Ermənistanı qorxuya salıb

Rusiya və İranın zəifləməsi getdikcə hər iki dövlətin Cənubi Qafqazdakı manevr imkanlarını məhdudlaşdıracaq

(səh.4)



## Daha meydan sulaya bilməyəcək

Tehran indi ən ağır, ən çətin imtahan qarşısındadır

(səh.5)



# Prezident İlham Əliyev bir sıra sənədlərdə dəyişiklik etdi

**Prezident İlham Əliyev "Siyasi partiyalar haqqında" Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanda dəyişiklik edilməsi haqqında fərman imzalayıb.**

Fərmana əsasən, müəyyən edilib ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

Həmin Qanunda birinci halda "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalara və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;

Həmin Qanunda ikinci halda "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, siyasi partiyalara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası;

kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Həmin Qanunda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Siyasi partiyalar haqqında" Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Qanundan irəli gələn məsələləri həll etməlidir.

# Türkiyə çox ciddi rıçaqlara sahibdir

## Ankara Azərbaycan-Ermənistan sülh gündəliyinin açarına çevrilməyi hədəfləyib

**"Türkiyə Cənubi Qafqazda sülh və sabitliyi təmin etmək üçün səylərini davam etdirir".**

**Bu barədə Türkiyə XİN rəhbəri Hakan Fidan 15-ci Səfirlər Konfransının açılış mərasimində bildirib.**

O qeyd edib ki, ölkəsi İranla ikitərəfli və regional əlaqələri, həmçinin Yunanıstanla münasibətləri pozitiv saxlamaq üçün də addımları davam etdirir.

**Hakan Fidanın açıqlamasını şərh edən siyasi şərhçi Abutalıb Səmədov "Şərq"ə açıqlamasında deyib ki, Türkiyə Cənubi Qafqazda rəqibləri üzərində strateji qələbə elan etmək yolunda irəliləmək üçün regional oyunçu baxımından Azərbaycan-Ermənistan sülh gündəliyinin açarına çevrilməyi hədəfləyib:** "Türkiyə dünyanın ən nüfuzlu dövlətlərindən biridir. Suriyada baş verən hadisələr, Bəşər Əsədin hakimiyyətdən uzaqlaşdırılması Türkiyənin çəkisini bir az da artırdı. Bütün bunlar göstərir ki, dünyada supergüc kimi tanınan dövlətlər belə Türkiyə ilə hesablaşmaq məcburiyyətindədir.



"Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə çevirmək üçün Türkiyənin əlində çox ciddi imkanlar var. Türkiyə təkcə regionda yox, dünyada sülhün bərqərar olması üçün ciddi cəhdlər edir"

Türkiyənin hər zaman qonşu ölkələrlə normal münasibətlər fonunda əməkdaşlıq etmək tərəfdarı olduğunu vurğulyan politoloq deyib ki, ciddi cəhdlə Türkiyə ilə danışıqlardan qaçan Bəşər Əsədin sonu digərlərinə də görk olmalıdır. Fransa və Amerikaya arxalanan Yunanıstan Türkiyə ilə münasibətləri normallaşdırmaq istəmir, səbəb isə Şərqi Aralıq dənizində tapılan neft yataqlarından Türkiyənin payına düşən haqqını verməmək niyyətləri durur. Türkiyə isə bununla barışmır və günün birində mütləq haqqı olanı alacaq".

**Türkiyənin konkret olaraq Cənubi Qafqazdakı fəaliyyətinə gəldikdə isə A.Səmədov deyib ki, Ermənistan Türkiyə ilə münasibətləri düzəltmək üçün əldən-ayaqdan gedir:** "Türkiyənin şərti isə dəyişməz olaraq qalır. Azərbaycanla münasibətləri bərpa edib, sülh sazişi imzalandıqdan sonra Türkiyə Ermənistanla əməkdaşlığa başlaya, diplomatik münasibətlər qura bilər.

Tək Ermənistan yox, İran da bilməlidir ki, Türkiyə ilə rəqabət aparmaq yox, ancaq dostluq münasibətləri qurmaq lazımdır. Türkiyə ilə ziddiyyət fonunda İran heç bir qazanc əldə edə bilməz. İtirə-itirə gedəcək. Necə ki Gürcüstan regiondakı reallığı dərk edir və Türkiyə ilə ticarət tərəfdaşlığı edir.

Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə çevirmək üçün Türkiyənin əlində çox ciddi imkanlar var. Türkiyə təkcə regionda yox, dünyada sülhün bərqərar olması üçün ciddi cəhdlər edir. Türkiyənin konstruktiv mövqeyinə şübhə edənlərin, onunla razılaşmayanların da sonda yaşadığı peşmanlıqlar hər kəsə bəllidir.

Türkiyədə imzalanan "İstanbul" razılaşmasından imtina edən Ukraynanın da bugünkü durumu göz qabağındadır. Türkiyəni axsadan yeganə problem iqtisadi çətinlikdir. Bu vəziyyəti düzəltmədən Türkiyənin layiq olduğu yerə gəlib çatması çətin olacaq. İndiki şəraitdə Türkiyə hakimiyyətinin əsas prioriteti ölkə iqtisadiyyatını gücləndirməkdir. İnşallah, qardaş ölkə bu problemlərini həll etdikdən sonra dünyanın supergüclərindən birinə çevriləcək".

**Şəymən Bayramova**

# Silahlı toqquşmalar hələ qabaqdadır

## ABŞ, Türkiyə, İsrail və İran Suriyada öz mövcudluqlarını qoruyub saxlamağa çalışacaqlar

**"Bəşər Əsədin geri qayıtmaq imkanı yoxdur. Çünki Bəşər Əsəd öz legitimliyini Suriya xalqı qarşısında çoxdan itirib. Eyni zamanda devrilmiş prezidentin və yaxud hansısa yaxınının hakimiyyətə gəlmək ehtimalı da yoxdur".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Zeynal Əmrəliyev bildirib.*



O söyləyib ki, Bəşər Əsəd və oğlanlarından birinin yaxın perspektivdə Suriyada hakimiyyətə gəlməsi heç müzakirə mövzusu belə deyil: "Məsələn, Liviyada Müəmmər Qəddafi hakimiyyətdən devrildikdən sonra bəzi güclər onun oğlu Seyf əl-İslam Qəddafini hakimiyyətə gətirmək istəsələr də, bu baş tutmadı. Suriyada isə müxalifət fərdi qruplardan formalaşıb. Əsədin devrilməsindən böyük rol oynayan radikal islamçı Təhrir əş-Şam qruplaşması mövcuddur. Həmçinin Qərb və Türkiyə tərəfindən dəstəklənən azad Suriya ordusu olan liberal müxalifət var. Digər tərəfdən isə Türkiyənin nifrət etdiyi, Qərb və İsrailin dəstəklədiyi PYD/YPG qruplaşmalarının adlarını çəkə bilərik. Bütün bu qrupların əsas məqsədi Bəşər Əsədi hakimiyyətdən devirmək idi və istəklərini yerinə yetirdilər".

**Ekspert qeyd edib ki, indi isə hər bir qruplaşmanın öz məqsədləri var:** "Bundan sonra Suriyada müvəqqəti hakimiyyət qurulmalı və 18 ay müddətinə ölkənin yeni konstitusiyası yaradılmalıdır. Liberal qanad bölgədə liberal dövlətin qurulmasını arzulayır. Təhrir əş-Şam isə daha çox islamçı dövlətin qurulmasından yanadır. Bütün bunların fonunda mübarizə gedəcək və silahlı toqquşma yaranacaq. ABŞ, Türkiyə, İsrail və İran Suriyada öz mövcudluqlarını qoruyub saxlamağa çalışacaqlar".

**Şahanə Ziyad**

# Zakir Həsənov Yaşar Gülərə başsağlığı verdi

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı ünvanlayıb.**



Müdafiə Nazirliyi xəbər verir ki, başsağlığında deyilir:

"Cari ilin 9 dekabr tarixində, İsparta vilayətində təlim uçuşu zamanı UH-1 tipli helikopterin qəzaya uğraması nəticəsində altı hərbi qulluqçunun şəhid olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Baş vermiş qəzada şəhid olmuş qəhrəman türk hərbçilərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

Qeyd edək ki, Türkiyənin Isparta vilayətinin Keçiborlu rayon mərkəzində təlim uçuşu zamanı iki hərbi helikopter toqquşub. Qəza nəticəsində 6 hərbi qulluqçu şəhid olub.

Hadisə yerinə təcili yardım və yanğınsöndürmə qrupları cəlb edilib. Məlumata əsasən, toqquşma nəticəsində bir hərbi helikopter qəzaya uğrayıb, digəri isə təhlükəsiz şəkildə yerə endirilib.

*Qeyd edilib ki, helikopterdə şəhid olanlardan biri Isparta Quru Aviasiya Məktəbinin Komandanı, general-mayor İsa Baydillidir.*

# Diplomatlara daha bir güzəşt

## Övladlığa götürdüyü 18 yaşına çatmamış uşaqlara görə müavinət ödənilə bilər



**Xidmət dövründə diplomatik xidmət orqanının əməkdaşlarının 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladlarına və övladlığa götürdüyü şəxslərə görə müəyyən məbləğdə aylıq müavinət ödənilə bilər.**

Bu, "Diplomatik xidmət haqqında" yeni qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, diplomatik xidmət orqanının əməkdaşlarının 18 yaşına çatmamış uşaqlarının övladlığa götürdüyü şəxslərin, eləcə də 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladlarının və övladlığa götürdüyü şəxslərin bir sıra xərcləri də dövlət tərəfindən ödənilməlidir. Həmçinin diplomatik xidmət orqanı əməkdaşlarına qəbul edən dövlətdə onlarla birlikdə yaşayan orta ixtisas və ali təhsilin bakalavr səviyyəsi üzrə əyani təhsil alan 23 yaşına qədər övladlarına və övladlığa götürdüyü şəxslərə görə müəyyən məbləğdə təhsil müavinəti ödənilməlidir.

# Şərti sərhəddə sakitlik əsas faktordur

## Azərbaycan prosesin təmkinlə aparılmasının tərəfdarıdır

**Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası prosesi dalana dirənməyib. Bunu Ermənistanın baş nazirinin müavini Mqer Qriqoryan deyib. Nikol Paşinyanın müavini bildirib ki, tərəflər növbəti görüşə hazırlaşsa da, onun dəqiq tarixi və formatı barədə razılaşma hələ ki yoxdur.**



O, həmçinin delimitasiyanın sərhədin hansı istiqamətində davam edəcəyini açıqlamayıb. M.Qriqoryanın sözlərinə görə, tərəflər növbəti görüşdə nəqliyyat kommunikasiyalarının açılması məsələsini də nəzərdən keçirəcək.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya prosesi uzun çəkən prosesdir:** "Çünki uzun illər münaqişə şəraitində qalan və ondan öncə SSRİ-nin işğalı altında olan iki dövlətin arasında sərhədlərin dəqiqləşdirilməsi çətindir. Nəzərə almaq lazımdır ki, Azərbaycan və Ermənistan arasında çox ciddi psixoloji gərginlik də var. Ermənilərlə bizim qarşılıqlı şəkildə işləməyimiz elə də asan məsələ deyil. Ona görə sərhəd məsələsinin tezliklə həll edilməsi gözlənilmir. Yəni məsələni tələsdirməyin də bir mənası yoxdur. Sözügedən proses qanunauyğun səviyyədə reallaşdırılmalıdır. Ermənistan tərəfinin belə açıqlama verməsi, əslində, Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən beynəlxalq konfransa müraciətində də nəzərə çatdırıldı. İlham Əliyev bütün çıxışlarında söyləyir ki, Azərbaycanla Ermənistan ikilikdə bütün məsələləri həll edə bilərlər. Üçüncü tərəflərin müdaxiləsi olmadan sərhədin 12 kilometri ilə bağlı dəqiqləşdirmə işlərini başa çatdırmışıq və bununla bağlı müsbət nəticələr var. Hesab edirəm ki, prosesi süni şəkildə sürətləndirmək lazım deyil. Çünki bəlli bir müddətdən sonra işlər yavaş-yavaş yoluna düşəcək. Qırğızıstan-Tacikistan, Qırğızıstan-Özbəkistan və Qırğızıstan-Qazaxıstan-Özbəkistan arasında da delimitasiya və demarkasiya problemləri mövcuddur. Bəzən bunlar qanlı qarşıdurmalara qədər gətirib çıxarır. Bizim üçün önəmli olan hazırda şərti sərhəddə sakitliyin olmasıdır. Azərbaycan tərəfi prosesin təmkinlə aparılmasının tərəfdarıdır".

**Şahanə Ziyad**

# Gələn aydan...

## Torpaq sahələri üzrə icarə ƏDV-yə cəlb edilməyəcək

**"Vergi Məcəlləsinə" ediləcək dəyişikliklərdən biri də hüquqi şəxslər tərəfindən torpaq icarəsinə görə əldə edilən icarə haqqının ƏDV-dən azad olunmasıdır".**



*Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, gələn aydan etibarən torpaq sahələri üzrə icarə ƏDV-yə cəlb edilməyəcək:*

"Bu dəyişiklik təşviq xarakteri daşıyır və sahibkarların xərclərinin azalmasına və gəlirlərinin artmasına səbəb olacaq. Belə ki, torpaq sahələrinin icarəsini təklif edən sahibkarlar ƏDV ödəməkdən azad olunlar. Digər tərəfdən, bu, sahibkarların xərcləri ilə yanaşı torpaqların icarə qiymətinə də təsir göstərə bilər. Belə ki, torpaqlar üzrə icarə qiyməti müəyyənləşən zaman 18 faizlik vergi də nəzərə alınaraq tərəflər razılaşırdı. Bu vergini hüquqi şəxsin ödəməsinə baxmayaraq, tərəflər razılaşan zaman həmin xərc əksər hallarda qiymətdə nəzərə alınırdı. Yeni ildən ƏDV ilə bağlı güzəşt tətbiq olunduğu üçün bu, torpaqların icarə haqlarının aşağı düşməsinə səbəb ola bilər. Bütövlükdə, bu dəyişiklik həm uçotun güclənməsinə, həm də sahibkarların dəstəklənməsinə xidmət edəcək".

**İsmayıl**



# Ermənistan yarımçıq sülhə nail olmağa can atır

## İrəvan Zəngəzur dəhlizi ilə bağlı imperial dairələrin təlimatlarını icra edir

**"Azərbaycan və Ermənistan arasında sülh prosesi məsələsinə konseptual yanaşmalıyıq. Tarixə nəzər yetirsək, görərik ki, ermənilər 1918-ci, 1919-cu illərdə imzaladıqları sənədləri asanlıqla yırtıb atdılar və işğalçılıq, şovinist əməllərinin arxasınca getdilər. Ona görə də yarımçıq sülh bizə lazım deyil".**

*Bu sözləri Xəzər Universitetinin Tarix və arexologiya departamentinin müdiri, tarix elmləri doktoru, siyasi şərhçi Telman Nüsrətoğlu deyib. Ekspert bildirib ki, Azərbaycan bölgənin əsas güc mərkəzi, lokomotiv gücü, yeni dönəmin, yeni geosiyasi şərtlərin ortaya çıxartdığı fürsətləri dəyərləndirən və bunu Qafqaz əməkdaşlığına çevirməyi düşünən, sülhün memarı olan bir ölkədir. Ancaq dünyada elə dairələr var ki, onlar həqiqəti yox, eşitmək istədiklərini səsləndirirlər:* "Ermənilərin təbliğatına rahatlıqla aldana bilirlər. Əslində, həqiqət tamam başqadır. Azərbaycan 44 günlük müharibədən sonra sülh diplomatiyasını özünün gündəminə aldı və ardıcıl, sistematik fəaliyyəti ilə Ermənistanı sülhə məcburetmə prosesini apardı. Ermənistanın Baş naziri Nikol Paşinyanın erməni dövlətinin mahiyyəti, erməni siyasətinin gələcəyi, strategiyası ilə bağlı ziddiyyətli açıqlamalarına da baxmaq lazımdır. Paşinyan deyir ki, erməni dövlətinin meyarları dəyişməlidir. Qeyd edir ki, uydurma "böyük Ermənistan"ın yox, real Ermənistanın arxasınca gedilməlidir. Bildirir ki, Azərbaycan və Türkiyə ilə düşmənçilik siyasəti aparmaqla bölgədə varlığını qorumaq qeyri-mümkündür. İrəvan hökuməti yaxşı başa düşür ki, Azərbaycanla güc müstəvisində danışa bilməyəcəklər. Azərbaycanla demoqrafik, siyasi-iqtisadi, strateji və hərbi mənada heç bir halda yarışa biləcək Ermənistan yoxdur. Ona görə də razılaşmağın zərurətini, sülhün qaçınılmazlığını anlayırlar. Bununla bərabər Ermənistan dövlətinin mahiyyəti elədir ki, daha çox xarici güc amillərindən asılı bir dövlətdir. Hətta hərbi təhlükəsizlik bürokratikasına, siyasi çevrələrə, iqtisadi güc mərkəzlərinə baxsaq, bunu açıq şəkildə görərik. Ermənistanın müstəqil ciddi qərarlar verməsində böyük problemlər var. Geosiyasi seçim məsələsində ciddi problemlər mövcuddur".

> "Ermənilər 1918-ci, 1919-cu illərdə imzaladıqları sənədləri asanlıqla yırtıb atdılar və işğalçılıq, şovinist əməllərinin arxasınca getdilər"

**T.Nüsrətoğlu vurğulayıb ki, Ermənistan cəmiyyəti, sadəcə, Paşinyan və onun iqtidarından ibarət deyil:** "Burada kilsə, lobbi, diaspor, radikal-terrorçu qüvvələr var. Bunlar hələ də Azərbaycana qarşı ərazi iddialarını davam etdirirlər. Hələ də Azərbaycanın daxili işinə qarışmağa cəhd edirlər. Ermənistan cəmiyyəti əvvəlcə öz arasında konsensusa gəlməlidir. Öz daxillərində bu prosesi yekunlaşdırmalıdır. Ya Azərbaycan və Türkiyə ilə qonşuluq münasibətlərini təsis edərək təcriddən xilas olmalı, rifahdan pay almalı, ya da düşmənçiliyi davam etdirməklə erməni dövlətçiliyinin daha böyük kataklizmlərlə üzləşməsinə yol açmalıdır. Yəni ermənilər seçim etməlidir. Ancaq baxırıq ki, Ermənistan bir tərəfdən silahlanır, digər yandan beynəlxalq ictimaiyyəti sülh manipulyasiyaları ilə aldadır. Əslində, nəyə nail olmağa çalışır? 30 illik işğal dövründə Azərbaycana milyardlarla dollar ziyan dəyib. Torpaqlarımız, şəhər və kəndlərimiz tarımar edilib. Bununla bağlı beynəlxalq məhkəmələrdə proses gedir. Ermənistan yarımçıq sülhə nail olmaqla, konstitusiyadan ərazi iddiasını çıxartmamağı, silahlanmaya davam etməyi düşünür. Zəngəzur dəhlizi ilə bağlı imperial dairələrin təlimatlarını icra edir. Azərbaycan bu məsələni beynəlxalq hüquqdan doğan haqqı olaraq açıq şəkildə gündəmə gətirir. Azərbaycanın bir hissəsi digərindən ayrılıb, Naxçıvan təcrid vəziyyətindədir. Qars anlaşmasının müddəalarına zidd şəkildə Naxçıvanın bəzi əraziləri sovet dövründə Ermənistana hədiyyə edilib. İndi biz deyirik ki, Zəngəzur dəhlizini açın, çünki bu, bizim haqqımızdır".

**Analitik əlavə edib ki, dünyada deportasiyaya məruz qalmış xalqlardan biri Azərbaycan xalqıdır:** "Xalqımızın nümayəndələri bir neçə mərhələdə kütləvi köçə məcbur edilib. O baxımdan Qərbi Azərbaycana qayıtmaq azərbaycanlıların müstəsna hüququdur. Qərbi Azərbaycan tarixi yurdumuzdur. Ermənistan tərəfi təbliğat aparır ki, guya Azərbaycan bu məsələdən istifadə edərək Ermənistana müdaxilə etmək istəyir. Çox cəfəng bir arqumentdir. UNESKO-ya imkan yaradılmalıdır ki, Qərbi Azərbaycandakı maddi-mədəni irsimizlə bağlı araşdırma aparsın. Çünki oradakı maddi-mədəni irsimizin əksəriyyətini məhv ediblər".

**İsmayıl**

# Gürcü hakimiyyəti vaxtında tərpəndi

## "Maydan" ssenarisi Gürcüstanda həyata keçməyəcək



**Gürcüstanda siyasi gərginlik və etiraz aksiyaları davam edir. Hökumət qüvvələri ilə müxalifət arasında qarşıdurma pik həddə çatıb. Fasiləsiz davam edən kütləvi etirazlar zamanı çox sayda xəsarət alanlar və həbs olunanlar var.**

Tbilisinin mərkəzində etiraz aksiyalarının iştirakçıları tərəfindən zorakılıq hallarının sayı durmadan artır. Hakimiyyət strukturlarında və Gürcüstanın Avropa ölkələrindəki diplomatik korpusların rəhbərləri bir-birinin ardınca istefa verir.

**Siyasi şərhçi Fərid Şahbazlının "Şərq"ə açıqlamasına görə, Gürcüstanda "kələfin ucu" itib. Aləm bir-birinə qarışıb. O bildirib ki, hər şey bu yaxınlarda ölkədə keçirilən seçkilərdən və Gürcüstan hakimiyyətinin Avropa İttifaqı (Aİ) ilə 2028-ci ilə qədər bu ittifaqa üzvlüklə bağlı danışıqlardan imtina etmək qərarından sonra başlayıb:** "Bu qərarı qəbul etməklə hakimiyyət, əslində, qabaqlayıcı addım atıb. Belə ki, etibarlı mənbələrin yazdığına görə, dekabrın 16-da Avropa Komissiyası Gürcüstanla danışıqlardan imtina etdiyini elan etməklə, ölkədə iğtişaşlar törətməyi planlaşdırırmış. Gürcüstan hakimiyyətinin qərarı onların bütün planlarını alt-üst edib və onlar da bunu həzm edə bilmir. Odur ki, bütün vasitələrlə ölkəni qarışdırmağa, vətəndaş müharibəsi və dövlət çevrilişi təşkil etməyə, son nəticədə onların yediyində gedən birini taxta oturtmağa nail olmağa çalışırlar.

Vaxtilə Avropa bu ssenarini Azərbaycanda da həyata keçirmək istəmişdi. Lakin baş tutmamışdı. Azərbaycan xalqı və hakimiyyəti buna izn verməmişdi. Avropa İttifaqı, NATO, "xoşbəxt gələcək" və s. kimi gözqamaşdırıcı vədlərlə şirnikləndirilən Ukrayna isə çox asanlıqla onların qarmağına keçdi, hansı ki, indi parçalanma, bir dövlət kimi mövcudluğunu itirmə təhlükəsi ilə üz-üzə qalıb.

Bir dəfə - 2008-ci ildə Qərbin dağıdıcı oyunlarına alət olan Gürcüstan Abxaziyanı və Cənubi Osetiyanı itirdi. İndi isə bütövlükdə Gürcüstanın yox olmaq təhlükəsi yaranıb. Bu barədə Baş nazir İrakli Kobaxidze də xalqa son müraciətində xəbərdarlıq edib. O qeyd edib ki, ölkədə baş verən hadisələrə görə bütün məsuliyyət avropalı siyasətçilərin, bürokratların, eləcə də onların Gürcüstandakı agentlərinin - radikal müxalifət partiyaları şəklində "beşinci kolon"un üzərinə düşür. Onlar və onların havadarları sabitliyi pozmaq, xaos yaratmaq, Gürcüstanı "ukraynalaşdırmaq" üçün hansısa bir səbəb uydurmağa çalışırlar. Lakin "Maydan" ssenarisi Gürcüstanda həyata keçirilməyəcək. Çünki son üç ildə Gürcüstan cəmiyyətinin şahidi olduğu bu cür yalanlar və ikiüzlülük gürcülərin Avropa institutlarına inamını sarsıdıb". Sonda Avropa "pərəstişkarlarına" bir tarixi həqiqəti xatırtlamaq yerinə düşər: zahirən "demokratiya beşiyi" kimi görünən bugünkü Avropa, əslində, bir xəyanət yuvasıdır. Bugünkü Avropa böyük mənada LGBT deməkdir, riyakarlıq deməkdir, irqçilik, qan-qada, müharibə, savaş, münaqişə deməkdir. Bugünkü Avropa, milli və dini dəyərlərin ayaq altına atılıb tapdandığı bir məkandır".

**Şəymən Bayramova**

# Əsədin devrilməsindən sonra daha böyük xaos yaşanacaq

## Suriyanın ərazi bütövlüyü Türkiyənin Suriya siyasətinin əsas sütununu təşkil edir



Türkiyə cərəyan edən prosesləri analiz edərək Suriyanın şimalında təsis etdiyi 30 kilometrlik təhlükəsizlik dəhlizini Suriyada konstitusiya quruluşu qurulana qədər davam etdirəcək

**Suriyada "Heyət Təhrir əş-Şam" adlı qruplaşmanın Dəməşqi ələ keçirməsindən sonra Bəşər Əsəd rejimi devrilib. O, ailəsi ilə birgə Rusiyaya sığınıb. Əsədin İranda olması ilə bağlı da xəbərlər yayılıb. Qeyd edək ki, 1963-cü ildə Suriyada hakimiyyətə gələn Baas Partiyasının 61 illik hakimiyyəti, 2011-ci ildə azadlıq tələb edən xalq hərəkatlarının zorakılıqla yatırılması ilə yadda qalıb.**

Bəşər Əsədin atası Hafiz Əsəd 1971-ci ildə Suriya prezidenti olub. Türkiyə xarici işlər naziri Hakan Fidan deyib ki, Suriyada yeni dövr başlayıb. XİN başçısı vurğulayıb ki, Türkiyə bundan sonrakı dövrdə müxtəlif etnik qrupların sülh şəraitində və əhatəli idarəetmə anlayışı ilə yaşadığı Suriyanın olmasını ümid edir: "Bunun üçün lazımi dəstəyi verməyə hazırıq. Türkiyə üzərinə düşən hər cür öhdəliyi yerinə yetirməyə hazırdır. Dəməşqdə açılan yeni səhifədə Suriya xalqının yanındayıq. Suriyanın yenidən qurulması üçün lazım olan dəstəyi də verəcəyik". ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp Əsədin sürətlə devrilməsi ilə bağlı təəccübünü bildirib. Trampın sözlərinə görə, təəccüblü olan odur ki, Əsəd indiyə qədər daha çətin günlərdən keçib, lakin hakimiyyətini qoruyub: "Bu heyrətamizdir, çünki o, illərdir orada olub. Görünür, daha pis vəziyyətdədir və birdən üsyançılar toplaşıb ölkənin böyük hissələrini ələ keçirirlər. İnsanlar uzun müddətdir ki, ona qarşı mərc edirlər və indiyə qədər bu, işləməyib. Amma indi hər şey başqa cürdür". Avropa Birliyi (AB) komissiyasının rəhbəri Ursula fon der Lyayen vurğulayıb ki, milli birliyini qoruyan və bütün azlıqların təhlükəsizliyini təmin edən Suriya dövlətinin yenidən qurulması üçün dəstək verməyə hazırıq. O bildirib ki, zalım Əsəd rejiminin çökməsi ilə tarixi fürsətlər yaransa da, risklər qalmaqda davam edir. AB-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas deyib ki, Bəşər Əsəd hakimiyyətinin sonu çoxdan gözlənilən hadisə idi: "Bu, həm də Əsədin dəstəkçiləri olan Rusiya və İranın zəifliyini göstərir. Bizim prioritetimiz regionda təhlükəsizliyi təmin etməkdir. Mən Suriyada və regionda bütün konstruktiv tərəfdaşlarla işləyəcəyəm". Rusiyanın Xarici İşlər Nazirliyindən bildirilib ki, Bəşər Əsəd Suriya ərazisində silahlı münaqişənin bir sıra iştirakçıları ilə apardığı danışıqlar nəticəsində prezident postunu tərk etmək qərarına gəlib: "Əsəd hakimiyyətin dinc yolla ötürülməsi barədə göstəriş verərək ölkəni tərk edib. Rusiya bu danışıqlarda iştirak etməyib". Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Suriyanın keçmiş Prezidenti Bəşər Əsəd və ailəsinə sığınacaq verilməsi barədə qərarı Rusiya Prezidenti Vladimir Putin verib. Kremlin sözçüsü qeyd edib ki, Putinin rəsmi cədvəlində Əsədlə görüş yoxdur. Peskov "Putin sonuncu dəfə Əsədi nə vaxt görüb və onunla əlaqə saxlayıb" sualına cavab verməyib. Rusiya prezidentinin sözçüsü Əsədin harada olduğunu açıqlamayıb. Peskov yeni hakimiyyətlə münasibətlərdən danışarkən deyib: "Rusiya Suriyada öz ordusunun təhlükəsizliyini təmin edə bilənlərlə əlaqələr qurur".

Hindistanın "The Economic Times" qəzeti yazıb ki, Kəşmir məsələsində (Pakistana qarşı) Dehlini dəstəkləyən Suriya Prezidenti Bəşər Əsədin devrilməsi İslam dünyasında Hindistana zərbə olacaq. Nəşrin fikrincə, Əsədin devrilməsi Pakistanla Kəşmir münaqişəsində Hindistanın mövqeyini sarsıdacaq: "Suriyada Əsəd rejiminin süqutu İslam dünyasında Hindistana zərbədir. Əsədin rəhbərliyi altında olan Suriya İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla, Hindistanın Kəşmirlə bağlı mövqeyini ardıcıl dəstəkləyib". Qəzet vurğulayıb ki, Əsəd dönəmində Suriya Pakistanla məhdud əlaqələri qoruyaraq, Hindistanla çoxtərəfli platformalar da daxil olmaqla, daha sıx siyasi əlaqələri inkişaf etdirib.



Türkiyə Trampın andiçmə mərasiminə qədər YPG-ni sıradan çıxarmaq üçün Suriya Milli Ordusu vasitəsilə böyük əməliyyat keçirə bilər

Türkiyə milli müdafiə naziri Yaşar Gülərlə ABŞ müdafiə naziri Lloyd Ostin arasında telefon danışığı baş tutub. Ostinlə Gülər telefon danışığı zamanı Suriyadakı son prosesləri müzakirə ediblər. Ostin ABŞ-nin Suriyadakı müxalif qrupların bəyanatlarını və hərəkətlərini yaxından izlədiyini vurğulayıb. Hər iki nazir bu qrupların mülki insanları, xüsusilə etnik və dini azlıqları qorumaq üçün addımlar atmalı və beynəlxalq humanitar normalara riayət etməli olduqlarını bildiriblər. Tərəflər eyni zamanda, ABŞ qüvvələri və tərəfdaşları üçün risklərin qarşısının alınması, İŞİD-lə mübarizə missiyasına dəstək üçün Türkiyə ilə ABŞ arasında sıx koordinasiyanın vacibliyini bir daha təsdiqləyiblər. Ostin Türkiyənin qanuni təhlükəsizlik narahatlıqlarını qəbul edib və həm İŞİD, həm də bölgədəki digər zərərli aktorların yaratdığı risklərə toxunub. Türkiyə ordusunun Baş Qərargah rəisi Mətin Gürak da NATO-nun Avropa Müttəfiq Qüvvələrinin komandanı, general Toni Radakin ilə telefon danışığı aparıb.

Türkiyəyə köç edən suriyalılar Əsəd rejiminin devrilməsindən sonra ölkələrinə qayıdır. Bildirilib ki, Türkiyə jandarması tərəfindən sıxlığın qarşısını almaq üçün sərhəddən təxminən 5 kilometr aralıda ayrıca keçid məntəqəsi yaradılıb. Yoxlamalardan sonra sərhədi keçməyə münasib hesab edilən suriyalılar "Cilvəgözü" sərhəd-keçid məntəqəsinə istiqamətləndirilir.

**Türkiyəli professor, "Qafqaz" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktay "Şərq"ə açıqlamasında vurğulayıb ki, Suriyada 13 ildir davam edən böhran HTŞ qruplaşmasının hücumu və Əsədin hakimiyyətdən devrilməsi ilə daha naməlum məcraya doğru sürətlə irəliləyir. Professor vurğulayıb ki, xüsusilə HƏMAS-ın 7 oktyabr 2023-cü ildə İran və Rusiyanın dəstəyi ilə İsrailə hücumundan sonra Yaxın Şərqdə təhlükəli hadisələr yaşanmağa başlandı:** "İsrail təhlükəsizlik səbəbi ilə əvvəlcə HƏMAS-ı, sonra Hizbullahı sıradan çıxardı. Əsəd Administrasiyasının qısa və ortamüddətli İsrail üçün risk yaradacağını nəzərə alan İsrail Hizbullahla atəşkəs bağladı. Bundan dərhal sonra ABŞ və İsrail Əsədi devirmək üçün hərəkətə keçdilər. Türkiyəyə səfər etmiş İranın xarici işlər naziri Abbas Əraqçı bunu açıq şəkildə ifadə etdi və hətta Türkiyənin də bu koalisiyaya daxil olduğuna eyham vurdu. XİN başçısı Hakan Fidan buna cavabında prosesin kortəbii hadisə olduğunu və arxasında Türkiyənin olmadığını vurğuladı. Fidan Türkiyənin nəzarətində olan Suriya Milli Ordusunun HTŞ-nin əməliyyatında iştirak etmədiyini açıq şəkildə bildirdi. Amma HTŞ-nin uğur göstəricisi ortaya çıxanda Türkiyə Suriya Milli Ordusu vasitəsilə bu əməliyyatda iştirak etməyə başladı".

**H.Oktaya görə, Əsədin devrilməsindən sonra ya daha böyük xaos yaşanacaq, ya da bu xaos mühitində gözlənilməz nizam yaranacaq:** "Suriyanın ərazi bütövlüyü Türkiyənin Suriya siyasətinin əsas sütununu təşkil edir. Son hadisələr, xüsusilə Suriya Milli Ordusunun Fəratın qərbində həyata keçirdiyi əməliyyat YPG, PKK terror təşkilatının Suriyanın şərqinə geri çəkilməsinə səbəb oldu. Lakin bu güclər hələ də Suriyanın ərazi bütövlüyünə təhlükə yaratmaqda davam edirlər. Tramp Amerika əsgərlərinin Suriyanın şərqindən geri çəkilməyəcəyini bildirdi. Bu, YPG terror təşkilatına dəstək mənasına gəlir. Ona görə də Türkiyə Trampın andiçmə mərasiminə qədər YPG-ni zərərsizləşdirmək üçün Suriya Milli Ordusu vasitəsilə böyük əməliyyat keçirə bilər. Türkiyə cərəyan edən prosesləri analiz edərək Suriyanın şimalında təsis etdiyi 30 kilometrlik təhlükəsizlik dəhlizini Suriyada konstitusiya quruluşu qurulana qədər davam etdirəcək. Suriyada yeni demokratik sistemin qurulmasına, qanunun aliliyi, vətəndaş hüquqları bərpa olunanadək Türkiyə bu ölkədə qalmağa davam edəcək. Suriyada Türkiyənin dəstəklədiyi Əbdürrəhman Mustafanın rəhbərliyi ilə yeni hökumətin qurulacağı istisna edilmir".

**İsmayıl Qocayev**



# Rəqəmsal əsrdə həqiqət uğrunda mübarizə

**Professor Fahrettin Altun,
Türkiyə Prezident
Administrasiyasının İctimaiyyətlə
Əlaqələr İdarəsinin rəhbəri**

**Yaşadığımız dövr bəşəriyyətə yeni imkanlar təqdim etməklə yanaşı, həm də ciddi çağırışlar gətirir. İnformasiya istehsalı və dövriyyəsi sürətinə ayaq uydurmağın çətin olduğu əsrimizdə kommunikasiya ekosistemində köklü transformasiya prosesi gedir. Lakin bu transformasiya prosesi nə qədər müsbət irəliləyişləri ehtiva edirsə, özü ilə mənəvi, mədəni və humanitar sınaqları da gətirir.**

Texnologiyanın sürətlə inkişaf etdiyi bu yeni və çətin dövrdə gündəlik həyatın elementlərinə çevrilmiş süni intellekt və alqoritmlər artıq sadəcə alətlər deyil, həm də güc balansını yenidən müəyyən edən aktorlardır.

Həqiqətlə yalan arasındakı sərhədin gündən-günə daha da bulanıqlaşdığı və bəşəriyyətin "həqiqət böhranı" da adlandırıla bilən qeyri-müəyyənliklər dolaşıqlığı ilə mübarizə apardığı müasir dünyada biz böyük çətinliklərlə üz-üzəyik və bilirik ki, problemlərin bu dolaşıqlığını aradan qaldırmaq üçün effektiv ünsiyyət strategiyaları hazırlamaqdır, yeganə çıxış yolu budur.

Bizim prioritetimiz cəmiyyətin xeyrinə texnologiyanın transformasiya etdiyi kommunikasiya ekosisteminin imkan və təhdidlərini effektiv təhlil etmək və idarə etmək olmalıdır. Yeniliklər cəmiyyətlərin ünsiyyət vərdişlərini dəyişdirir və rəqəmsal media həyatımızın vacib bir hissəsi kimi önə çıxır. Bu dəyişikliyin ən diqqət çəkən tərəfi isə süni intellektin ünsiyyət proseslərinə təsiri ilə özünü büruzə verir.

Süni intellekt vasitələri dünyamızı və bütün sektorları sürətlə dəyişdirir. Bu gün süni intellekt strateji ünsiyyətdə oyunu dəyişdirən qüvvə kimi qarşımızda dayanır. Məlumatların təhlili, məzmun istehsalı və böhranın idarə edilməsi kimi sahələrdə təklif etdiyi imkanlar cəmi bir neçə il əvvəl ağlasığmaz olan sürət və səmərəliliyi təmin edir. Bir müddət əvvəl elmi fantastika filmlərində xəyal edilə bilən ideyalar indi hər kəs üçün asanlıqla əlçatan olub. Lakin təəssüf ki, texnologiyanın bu müsbət tərəqqisi düzgün məqsədlər üçün istifadə edilmədikdə rəqəmsal silaha çevrilmək potensialına malikdir.

Dərin saxtakarlıqlar yaratmağa qadir olan süni intellekt orijinal məzmunu saxta məzmundan ayırd etmək mümkün olmasa da, cəmiyyətlərin etibarını zədələyir və həqiqət böhranını dərinləşdirir. Bu, dezinformasiya, manipulyasiya və etik pozuntuların dağıdıcı nəticələrini xeyli artırır.

Alqoritmlər tərəfindən idarə olunan dünyada fərdlərin əks-səda kameralarında tələyə düşməsi sosial qütbləşməni gücləndirir və manipulyasiya həqiqəti əvəz edir. Bu vəziyyət süni intellektin etik prinsiplərlə idarə olunmasının lazım olduğunu bir daha ortaya qoyur. Rəqəmsal sahədə süni intellektin istifadəsi hesabatlılıq, şəffaflıq və etika kimi bir çox problemi gündəmə gətirir.

Qəzzada baş verən son faciələr zamanı hamımız süni intellektlə dəstəklənən dezinformasiyanın beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün necə istifadə edildiyinin şahidi olduq. Sosial mediada dezinformasiya alqoritmlərlə sürətlə yayılsa da, dəqiq məlumatların əldə edilməsinə giriş bloklanıb. Nəticədə hadisələr və insan hüquqlarının pozulması ilə bağlı real məlumatların ictimaiyyətə çatdırılması çətinləşib.

Təbii ki, texnoloji və rəqəmsal imkanların bəşəriyyətə verdiyi böyük faydaları inkar etmək olmaz. Necə ki, bu imkanlardan bədxah məqsədlər üçün istifadə edənlərin mövcudluğu qlobal təhlükəsizlik və sabitlik mühitinə təhlükə yaratdığını inkar etmək olmaz. Türkiyə kimi bu cür dağıdıcı təsirlər qarşısında biz dezinformasiyanın qarşısını almaq, həqiqəti müdafiə etmək və strateji kommunikasiya mexanizmlərimiz vasitəsilə beynəlxalq ictimaiyyətin dəqiq məlumat əldə etməsini təmin etmək üçün sıx səylər göstəririk. Rəqəmsal təhdidlər haqqında məlumatlılığın artırılması və media savadlılığının artırılması günümüzün müxtəlif riskləri ilə mübarizədə prioritetlərimizdəndir.

Rəqəmsal sahədə hərtərəfli transformasiyanı idarə etmək üçün qlobal əməkdaşlığın əhəmiyyəti hər gün daha çox hiss olunur. Türkiyə olaraq həqiqət uğrunda mübarizədə beynəlxalq əməkdaşlığa dəstək fəaliyyətlərimizi davam etdiririk.

Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın Türkiyə Əsri Baxışı çərçivəsində Türkiyə olaraq bu transformasiya dövründə strateji mövqe tuturuq. Biz texnologiyanı bəşəriyyətin xidmətinə təklif etməyə, sosial faydaya üstünlük verməyə və həqiqətə əsaslanan ünsiyyət yanaşmasına əsaslanırıq. Bu yeni dövrdə biz qeyri-müəyyənlikləri idarə etmək və inam yaratmaq üçün strateji ünsiyyəti açar kimi görürük. Türkiyə olaraq bu sahədə milli və beynəlxalq səviyyədə fəal rol oynayırıq.

Prezident Aparatının Əlaqələr İdarəsi olaraq həyata keçirilən dezinformasiya ilə mübarizə səylərimiz uzun müddətdir ki, həqiqət böhranına qarşı qətiyyətlə çalışır və bu çərçivədə təsirli həll yolları inkişaf etdirir. Biz böhran kommunikasiyasını süni intellektlə dəstəklənən strateji kommunikasiya proseslərinin ən vacib tətbiq sahələrindən biri hesab edirik. Dəqiq məlumatı tez əldə etmək və ictimaiyyəti effektiv məlumatlandırmaq böhran zamanlarında həyat xilasedicisi rolunu oynayır.

Rəqəmsal dövrün transformasiya dalğalarını yaxından hiss etdiyimiz bu dövrdə 13-14 dekabr 2024-cü il tarixlərində təşkil edəcəyimiz "STRATCOM: "Beynəlxalq Strateji Kommunikasiya Forumu" bütün bu imkanların və risklərin qlobal miqyasda dərindən müzakirə ediləcəyi aparıcı platformadır. Dünyanın hər yerindən dövlət sektoru, media, akademik, vətəndaş cəmiyyəti və özəl sektor nümayəndələrini bir araya gətirən Forum strateji kommunikasiya ekosisteminin gələcəyini formalaşdıran ideyaların birləşdirildiyi mərkəzdir.

Lakin "STRATCOM"u təkcə Forum kimi qəbul etmək düzgün deyil. "STRATCOM: "Beynəlxalq Strateji Kommunikasiya Forumu" həm də rəqəmsal dövrün çağırışlarına və həqiqət böhranına qarşı ümumi iradənin qurulmasına imkan verən qlobal çağırışdır. Biz bu qlobal çağırışın əhəmiyyətini görürük, çünki süni intellekt və strateji kommunikasiyada baş verən bu inqilablar özləri ilə böyük məsuliyyətlər gətirir.

Biz bəşəriyyətin ümumi gələcəyinin tərəfdarıyıq; Həqiqət, vicdan və ədalət prinsiplərindən vaz keçməyən bir anlayışla hərəkət etməli olduğumuzun fərqindəyik. Bu anlayışı rəhbər tutaraq Türkiyə təkcə öz bölgəsində deyil, qlobal səviyyədə də model olmağa davam edəcək.

# ABŞ rəhbərinin məqsədi aydındır

## Tramp hər zaman deyib ki, NATO-nun maliyyələşməsinin bütün gücü ABŞ-nin üzərinə düşməməlidir




**ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp ölkəsinin Şimali Atlantika Alyansından çıxma ehtimalını istisna etməyib.**

O, bu barədə "NBC Nyus"a müsahibəsində deyib. Tramp vurğulayıb ki, müttəfiqlərin maliyyə öhdəliklərini yerinə yetirməsi Vaşinqtonun alyansda davamlı iştirakının əsas şərti olacaq. Tramp Ukraynaya hərbi yardımı azaldacağını da elan edib.

Ukraynaya hərbi yardımın gələcəyi ilə bağlı sualı cavablandıran Tramp qeyd edib ki, o, vəzifəyə gəldikdən sonra Kiyev ABŞ-nin əvvəlki səviyyədə dəstəyini görməyə bilər.

**Beynəlxalq Münasibətlər və Diplomatik Araşdırmalar Mərkəzinin rəhbəri Samir Hümbətov "Şərq"ə vurğulayıb ki, Donald Trampın açıqlaması, əslində, Qərb ölkələrinə mesaj və blef kimi də dəyərləndirilə bilər.** Ekspertin sözlərinə görə, Tramp bundan öncəki hakimiyyəti dövründə NATO-ya üzv dövlətlərin hərbi alyansa dəstəyini artırmaq məqsədilə həmin dövlətlərdən Ümumi Daxili Məhsulun (ÜDM) 3 faizini təşkilata ayırmalarını istəyirdi: "Amma Trampın ozamankı tələbi NATO üzvləri tərəfindən yerinə yetirilmədi və belə bir məbləğ ödənilmədi. ABŞ rəhbərinin məqsədi aydındır. Tramp hər zaman deyib ki, NATO-nun maliyyələşməsinin bütün gücü ABŞ-nin üzərinə düşməməlidir. Avropa ölkələri də maliyyə ayrılması məsələsində əsaslı rol oynamalıdır. Ona görə də Avropa ölkələrinin hərbi alyansın maliyyələşməsində iştirak payını çoxaltmaq məqsədilə bu cür mesajlar verir. Ancaq ABŞ-nin NATO-dan çıxacağı inandırıcı görünmür. Vaşinqtonun Kiyevə dəstəyi də qaçılmazdır. Ola bilsin, maliyyə məsələsində müəyyən azalmalar müşahidə olunsun, amma bu, dəstəyin tamamilə kəsilməsi anlamına gəlmir".

**İsmayıl Qocayev**

# Poliqonda təlim keçirilir

## Gəncədə partlayış səsləri ilə bağlı məlumatlar həqiqəti əks etdirmir




**Bir sıra sosial şəbəkə istifadəçiləri tərəfindən Gəncə şəhəri ətrafında partlayış səslərinin eşidilməsi və təcili tibbi yardım maşınlarının intensiv hərəkətinin müşahidə olunması ilə bağlı paylaşılan məlumatlar həqiqəti əks etdirmir və cəmiyyətdə süni ajiotaj yaratmağa yönəlib.**

Bu barədə Medianın İnkişafı Agentliyinin yaydığı məlumatda deyilib.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi cari ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunları bölmələrinin Seyfəli poliqonunda taktiki təlim keçirdiyini və narahatlığa heç bir əsas olmadığını bildirib.

Sosial şəbəkə seqmentinə bu tipli yalan məlumatların yayılmasını və təkrar tirajlanmasını yolverilməz hesab edirik.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların təsirinə düşməməyə çağırırıq", - məlumatda qeyd olunub.

# Əsəd rejiminin devrilməsi Ermənistanı qorxuya salıb

## Rusiya və İranın zəifləməsi getdikcə hər iki dövlətin Cənubi Qafqazdakı manevr imkanlarını məhdudlaşdıracaq



**Suriyada Bəşər Əsəd rejiminin devrilməsi Ermənistanda isterikanı gücləndirib. Əsəd rejiminin çökməsindən narahat olan erməni siyasi şərhçilər Əsədin devrilməsinin Ermənistan üçün acı nəticələrinin olacağını iddia edirlər. Bir çox erməni politoloq kimi "panermənilər" də Bəşər Əsəd rejiminin süqutundan əndişələndiklərini gizlətməyiblər.**

Erməni mediası və ekspertlər Əsədin getməsini Türkiyənin və dolayısı ilə Azərbaycanın bölgədə güclənməsi, yeni dünya nizamında möhkəm, etibarlı oyunçuya çevrilməsi kimi şərh edirlər, Zəngəzurun itirilməsindən danışırlar. Məsələn, politoloq Hrant Melik-Şahnazaryan bildirib ki, Türkiyə və Rusiya eyni məqsədi güdürlər: "Biri Osmanlı imperiyasını, digəri Rusiya imperiyasını bərpa etməyə çalışır. Hər ikisinin bu işdə müəyyən uğurları var". Onun fikrincə, "yaranan yeni dünya nizamı yeni güc balansını" nəzərdə tutduğu üçün Cənubi Qafqazın iki ölkəsi - Azərbaycan və Gürcüstan buna hazırlaşır. Gürcüstan anladı ki, bu dəyişikliklər dövründə dəqiq seçim etməyi bacarmaq lazımdır. Və onlar Avropanın vədlərini Abxaziyanın geri qaytarılması perspektivinə tabe edərək, bu seçimi etdilər. Artıq İran qüvvələri Azərbaycanın Zəngəzuru işğal etməyə hazırlaşdığı barədə xəbərlər yayırlar. Amma biz heç nə hiss etmək istəmirik". Pan-Erməni Milli Dövlət Partiyasının bəyanatında əks olunub ki, Suriya faktiki olaraq getdi və işğal olundu, bölgədə növbəti hədəf Ermənistan, İran və Gürcüstandır: "Yüz minlərlə muzdlu islamçı terrorçu bu gün boş qalıb və əminəm ki, Türkiyə və bəzi Qərb dövlətləri bundan bütün qaynar nöqtələrdə mütləq öz məqsədləri üçün istifadə etməyə çalışacaqlar. Artıq terrorçuların bəyanatları da var ki, Suriyadan sonra Qafqazı təmizləməyə gedəcəyik. Bu vəziyyət ölkəmizin təhlükəsizliyi üçün çox ciddi təhdiddir və biz bundan nəticə çıxarıb fəallaşmalıyıq. Zəngəzur dəhlizinin açılması mühüm şərtdir, sülhün bərqərar olmasına tərəfdardır və Ankara Bakının Ermənistan Konstitusiyasının dəyişdirilməsi tələbini dəstəkləyir və ona qoşulur".

Qeyd edək ki, Bəşər Əsəd hər zaman Ermənistanı dəstəkləyib və qondarma "erməni soyqırımı"nı tanıyıb. Bəşər Əsədin devrilməsindən sonra Ermənistanda xüsusi panika başlayıb. Bu amilin İranı öz sərhədləri daxilinə çəkəcəyindən narahat olan erməni politoloq və siyasətçilər əsas dayaqlarından - Tehranın himayəsindən məhrum olacaqlarını düşünürlər.

> "Bunun əvəzində Türkiyə-Azərbaycan ittifaqı Cənubi Qafqazda əsas siyasi iradə mərkəzi olaraq möhkəmlənəcək. Ermənistanı qorxudan əsas məsələ də bundan ibarətdir"

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə deyib ki, Suriyada Əsəd rejiminin devrilməsi iki önəmli dövlətin zəifləməsinin və yaxud da zəiflədilməsinin ciddi əlamətlərindən sayıla bilər. Ekspertə görə, Rusiya zəifləyib və Əsəd rejiminə onu qoruyacaq səviyyədə dəstək verməyi bacarmadı:** "Digər tərəfdən, Əsəd rejimini dəstəkləyən İranın da zəiflədiyi müşahidə olunur. İran özünün proksi qüvvələrini bir-birinin ardınca itirməkdə davam edir. Hizbullah və HƏMAS da zəiflədildi. İndi də İranın dəstəklədiyi Əsəd rejimi sıradan çıxdı və Suriya ərazisində Türkiyənin təsir mexanizmləri və dairəsi genişlənmiş oldu. Bu baxımdan həm Rusiyanın, həm də İranın zəifləməsi ilə bağlı ehtimallar kifayət qədər inandırıcı görünür. Təbii ki, Suriyada baş verənlər, eləcə də bu iki dövlətin zəifləməsi istər-istəməz Cənubi Qafqazdakı geopolitik proseslərə təsir göstərir. İndiyə qədər həm Rusiya, həm də İran Cənubi Qafqaza müəyyən qədər təsir göstərə bilirdilər. Hazırda bu təsirlərin sürətlə zəifləməsi istisna deyil. Getdikcə hər iki dövlətin Cənubi Qafqazdakı manevr imkanları məhdudlaşmağa başlayacaq və bunun əvəzində Türkiyə-Azərbaycan ittifaqı Cənubi Qafqazda əsas siyasi iradə mərkəzi olaraq möhkəmlənəcək. Ermənistanı qorxudan, narahat edən əsas məsələ də bundan ibarətdir".

**Analitik vurğulayıb ki, Türkiyə həm Suriyada, həm də dünya məkanında öz mövqelərini kifayət qədər ön plana çıxartmağa nail oldu:** "Hazırda Türkiyə yeni dünya düzəninin qurulması prosesində əsas siyasi iradə mərkəzlərindən birinə çevrilib. Eyni zamanda rəsmi Ankara Türkiyənin ətrafındakı regionlarda təsir rıçaqlarını artırmağa başlayıb. Bu sıraya Cənubi Qafqaz da daxildir və Türkiyə-Azərbaycan İttifaqı hazırda ermənilər üçün çox narahatedici faktor rolunu oynayır. İndiki situasiyada da Cənubi Qafqazda Türkiyə və Azərbaycan ittifaqı hegemon mövqe qazanmağa başlayıb. Belə bir situasiyada Ermənistan üçün kollaps situasiyası daha da ağırlaşır. Ermənistan Türkiyə-Azərbaycan ittifaqından asılı vəziyyətə düşmək təhlükəsi ilə qarşı-qarşıyadır. Yaxın gələcəkdə elə bir situasiya yarana bilər ki, geopolitik proseslərin inkişaf perspektivləri Ermənistanın gələcək taleyini birbaşa Azərbaycan və Türkiyə birliyindən asılı vəziyyətə sala bilər".

**Politoloq Turan Rzayev "Şərq"ə bildirib ki, Ermənistanın Suriyada Bəşər-Əsəd rejimi ilə əlaqələri çox yaxşı idi:**

"Hətta Əsəd rejimi dövründə erməni lobbisi və diasporu, həmçinin ümumilikdə ermənilərin Suriyada mövqeyi gücləndi. Türkmənlərin daha üstün olduğu və onların siyasətinin nüfuzlu olduğu yerlərdə ermənilər türkmənləri əvəzləməyə başladı. Yəni Əsəd bundan bir növ istifadə edirdi. Təsadüfi deyil ki, 44 günlük Qarabağ müharibəsi zamanı Suriyadan yüzlərlə erməni döyüşmək üçün məhz hazır silahlı formada Ermənistana gəldi. Həmin ermənilər elə vətəndaş müharibəsi zamanı Əsədin yanında döyüşən komandanlar, zabitlər və döyüş təcrübəsi olan şəxslər idi. Bu baxımdan Bəşər-Əsəd rejiminin süqutu Ermənistan üçün ciddi təhdid idi. Eyni zamanda Əsədin mövcud olduğu zümrə Suriyada "Süryani" deyilən hissəyə mənsubdur. Süryanilər də əslində, erməniləri mühafizə edirdi. Həmçinin onlar ərəb xristianlarıdır. Buna görə də burada xristian təəssübkeşliyi var. Əslində, Əsədin xristian olduğunu demək doğru deyil. Lakin babaları Süryani olduğu üçün erməniləri müdafiə etməsi təbiidir".

*Politoloqun sözlərinə görə, Əsəd rejiminin devrilməsi Ermənistan üçün böyük itkidir:* "Bu itkini kompensasiya etmək çətindir. Xüsusilə də hazırda Suriyada qeyri-müəyyənlik hakimdir. Türkiyənin dəstəklədiyi müxalif qruplar hakimiyyəti əllərinə keçirib. Amma hələlik rejimin işinin necə tətbiq ediləcəyi və hakimiyyətdə hansı dəyişikliklər ediləcəyi bəlli deyil. Buna görə də Ermənistan üçün hazırda Suriya siyasətində durğunluq dövrü olacaq".

**İsmayıl Qocayev,
Aynur Babazadə**



# Daha meydan sulaya bilməyəcək

## Tehran indi ən ağır, ən çətin imtahan qarşısındadır

**İran Suriya ilə əməkdaşlıq üçün şərtini açıqlayıb. Xarici işlər naziri Abbas Əraqçı deyib ki, terrorizmi dəstəkləməkdən imtina, Suriya şiələrinin hüquqlarına hörmət və İsraildən uzaqlaşma İranın Suriyanın yeni hakimiyyət orqanları ilə əməkdaşlığının əsas şərtləridir. O bildirib ki, müxtəlif fraksiyaları və klanları Suriyanın gələcək hökuməti ilə bağlı razılığa gəlməyə məcbur etmək asan deyil, lakin bu prosesi dəstəkləyirik, çünki Suriya xalqının iradəsinin qalib gəlməsini istəyirik".**

Suriyada müxalif qüvvələr 61 illik BƏƏS rejiminə son qoyarkən, Əsədə bağlı qüvvələrin niyə müqavimət göstərməməsi maraq kəsb edib. Əraqçı sözügedən məsələyə münasibət bildirərkən deyib ki, Suriya təhlükəsizlik qüvvələri İdlibdəki hərəkatlardan xəbərdar idi, lakin orduda çatışmazlıq müqavimət göstərməyə yetərli olmadı: "Suriya ordusu (Əsəd rejiminə bağlı qüvvələr - red.) motivasiya itkisi yaşayırdı. Bu vəziyyət də təbliğat və psixoloji müharibədən qaynaqlanır". XİN başçısı eyni zamanda qeyd edib ki, İranın Suriyadakı hərbi varlığı İŞİD-lə mübarizə ilə məhdudlaşır: "Suriyanın daxili problemlərinin həlli isə hökumətin üzərinə düşən vəzifədir".

İran Prezidenti Məsud Pezeşkian deyib ki, Suriya xalqı ölkənin taleyini dağıdıcı kənar müdaxilə olmadan həll etməlidir. Onun sözlərinə görə, Suriya cəmiyyətinin müxtəlif təbəqələri arasında dialoq lazımdır ki, o öz taleyi ilə bağlı sakit, böyük Suriya xalqına layiq bir qərar verə bilsin. İran parlamentinin sədri Məhəmməd Bagir Qalibaf deyib ki, dəfələrlə Bəşər Əsədə öz xalqına diqqət yetirməsi barədə xəbərdarlıq edilib: "Biz Suriyanın yeni hökumətinin atacağı addımlara baxırıq, əgər onların yanaşması İŞİD kimi deyilsə və israillilərlə əlaqə qurmasalar, islam ümmətini birləşdirməyə çalışacağıq". Qeyd edək ki, 3 gün əvvəl Qalibaf İranın Bəşər Əsədi dəstəklədiyini demiş və silahlı müxalifəti "terrorçu" adlandırmışdı. İsrail Baş naziri Benyamin Netanyahu Bəşər Əsəd rejiminin devrilməsini şərh edərkən bildirib ki, Dəməşqdə hakimiyyət dəyişikliyi İsrailin İran və Hizbullaha zərbələrinin nəticəsidir: "Biz İranı və onun terror şəbəkəsini hər yerdə məhv edəcəyik. Suriyada İran deyilən bir reallıq yoxdur artıq. Yeni reallıqda xalqımızın və yəhudi dövlətinin təhlükəsizliyini qoruyacağıq".

> İranın mühafizəkar dairələri qısa zaman kəsiyində illərin iki müttəfiqini itirdi

İranın keçmiş şahının oğlu Rza Pəhləvi də özünün X hesabında Suriyada Bəşər Əsəd rejiminin devrilməsi haqda yazıb. O, Bəşər Əsədin devrilməsindən sonra İran hökumətinin çox zəif vəziyyətə düşdüyünü bildirib: "İslam Respublikası özünün faciəli siyasəti ilə bölgə xalqları və dövlətləri ilə yanaşı, İran xalqının da həyatını məhv edib. Ölkənin milyardlarla sərvətini İranın abadlığına xərcləmək əvəzinə bölgədəki cinayətkarlar və muzdlulara verib. Ancaq bütün bunlara baxmayaraq, Suriyanın İran rejiminin məğlubiyyət simvoluna çevrildiyinin şahidi olduq", - Pəhləvi qeyd edib. Pəhləvi Bəşər Əsəd rejiminin devrilməsi ilə İranda xalq arasında Tehran rejiminin də süqutuna ümidləri artırdığını vurğulayıb.

**Politoloq Elxan Şahinoğlu "Şərq"ə deyib ki, İranın mühafizəkar dairələri qısa zaman kəsiyində illərin iki müttəfiqini itirdi. Onun sözlərinə görə, İsrail "Hizbullah"ın liderlərini, komandirlərinin əksəriyyətini öldürərək təşkilatı zəiflətdi, Suriyadakı silahlı qruplar isə Bəşər Əsədi devirdilər**: "İranda islam inqilabından bu yana Tehran bu iki müttəfiqi vasitəsilə rəqiblərinə meydan sulayırdı. İrandakı mühafizəkar qüvvələr məhz Suriya və "Hizbullah"ın imkanlarından istifadə edərək İsraillə mübarizə aparırdı. İran Suriyanın hava sahəsindən istifadə edərək İsrailə zərbələr endirirdi. İranın mühafizəkar dairələrinin əlindən bu imkan çıxdı. Birincisi, Suriya üzərindən İranla "Hizbullah" arasında quru əlaqəsi ortadan qaldırıldı. İkincisi, Suriyada yeni qurulacaq hakimiyyət ata və oğul Əsəd dövründə olduğu kimi Tehranla müttəfiq münasibətlər qurmayacaq.

Cümlələrimdə ona görə "İranın mühafizəkar dairələri" ifadəsini işlədirəm ki, baş verənlər ali dini lider və SEPAH-dan fərqli olaraq mötədil Prezident Məsud Pezeşkianın maraqlarına cavab verir. O ali dini lider və SEPAH-dan fərqli olaraq İranın məhdud maliyyə resurslarının ölkə daxilində istifadə olunmasının tərəfdarıdır. Halbuki mühafizəkar qüvvələr İranda yaşayanların ağır iqtisadi və sosial vəziyyətinə rəğmən, Əsəd rejiminin və "Hizbullah"ın ayaqda qalması üçün hər il on milyardlarla dollar xərcləyirdi. Pezeşkian bundan sonra həmin milyardların İranda xərclənməsinə çalışacaq. Suriya olayları İranı başqa dövlətlərin daxili işlərinə qarışmaqdan və bölgədəki silahlı qrupları dəstəkləməkdən çəkindirməlidir. Əks halda dəyişikliklər Suriya ilə yekunlaşmayacaq".

**İsmayıl**

# Yaxın Şərqdə siyasi xəritə dəyişə bilər

## Suriyanın gələcək taleyi Türkiyənin iradəsinə bağlıdır




**Suriyada baş verənlər fonunda Yaxın Şərqdə siyasi xəritənin dəyişə biləcəyi, yeni dövlətlərin, yaxud ən azı özünüidarəetmə çərçivəsində yeni muxtariyyətlərin ortaya çıxacağı görünür. Yaxın Şərqdə iştirakçı ölkələrin hər birinin dəstəklədiyi və maraqlarını onlar üzərindən həyata keçirdiyi yerli faktorlar var.**

Qeyd edək ki, ötən gün müxalif qrupların Suriyanın paytaxtı Dəməşqi ələ keçirməsindən sonra 53 illik Əsəd sülaləsi rejimi sona çatıb. Dəməşqi tərk edən Bəşər Əsədin taleyi məlum deyil.

**Siyasi şərhçi Vüqar Dadaşovun "Şərq"ə açıqlamasına görə, Suriyada Bəşər Əsəd rejiminin devrilməsində Türkiyənin, cənab Ərdoğanın birbaşa rəhbərliyi və iştirakı heç bir şübhə doğurmur. O bildirib ki, Türkiyə bununla İrana, Rusiya və hətta eyni cəbhədən çıxış etdiyi ABŞ-yə bir daha sübut etdi ki, regionun söz və güc sahibidir:** "Türkiyə regional, qlobal problemlərin həllində keçilməz oyunçu dövlətdir. Əlbəttə ki, 13 il əvvəl Suriya rejiminə qarşı vətəndaş müharibəsində Bəşər Əsədin devrilməməsində Rusiyanın, İranın dəstəyi vacib faktor idi. Rusiyanın Ukrayna ilə, İranın isə faktiki olaraq İsraillə zəiflədilməsi Suriyanın, Bəşər Əsəd rejiminin taleyinə də təsir göstərdi. Ancaq ən əsası isə Türkiyənin Bəşər Əsədin danışıqlara gedəcəyinə inanıb, Suriyaın suverenliyini qorumaq və rəsmi Dəməşqdən onun ərazisindən Türkiyənin təhlükəsizliiyinə zəmanət və təminat veriləcəyinə inanması idi. Rusiya və sair bir sıra qüvvələrin "dəminə" gedən Bəşər Əsəd Türkiyə və cənab Ərdoğanla danışıqlardan müxtəlif bəhanələrlə yayınaraq siyasi ədəbsizlik etdi və nəhayət cəzalandırıldı. Bəşər Əsəd rejiminin devrilməsində əsas qüvvə Türkiyə və ABŞ müttəfiqlik etsə də, nəticədən sonra Suriyanın taleyi və idarəçiliyində Türkiyə və ABŞ arasında kəskin fikir ayrılığı olacaq. Ancaq Donald Trampın prezidentliyindən sonra ABŞ üçün Suriya o qədər də önəm daşımayacaq. Heç şübhəsiz ki, Suriyanın gələcək taleyi Türkiyənin iradəsinə bağlıdır".

Bəşər Əsədin şəxsi taleyinə gəldikdə isə siyasi şərhçi deyib ki, onun İranda sığınmaq ehtimalı çox azdır: "İranın öz ərazisində öz liderlərinin belə təhlükəsizliyini təmin edə bilməməsi Bəşər Əsədin İrana getməsi üçün əsas maneədir. ABŞ və İsrailin mövqe və kəşfiyyatının güclü olduğu ərəb ölkələrinə də Bəşər Əsədin sığınmağı mümkünsüzdür. Bəşər Əsəd üçün ən təhlükəsiz ölkə məhz Rusiya görünür. Digər tərəfdən də, Rusiya İrandan fərqli olaraq dəstəklədiyi liderlərin taleyinə biganə qalmır. Həm də Rusiya belə davranışları ilə siyasətinin yeridilməsinə imkan açır və bir növü etibarlılıq zəmanəti nümayiş etdirir".

**Şəymən Bayramova**

# Yeni dünya nizamı yaranır

## Rusiya Suriyadan əl çəkmək niyyətində deyil




**Suriyada baş verənlər Ukraynada Rusiyanı məğlub etmək ehtimalından xəbər verir. Bu barədə vəzifəsini tərk edən Litvanın xarici işlər naziri Qabrielius Landsbergis deyib. Landsbergisin fikrincə, Suriyadan gələn xəbərlər sübut edir ki, Rusiyaya qalib gəlmək olar.**

O bildirib ki, Suriya nümunəsi göstərir ki, Rusiyanı qovmaq olar və o öz evinə qayıdacaq. Baltikyanılılar haqlı idilər, Qərb qalib gəlmək üçün kifayət qədər güclüdür. Ukraynada və ya başqa yerlərdə fəsad törədən "ayıdan" qorxmaq lazım deyil.

**Siyasi şərhçi Elmir Səftərov "Şərq"ə söyləyib ki, Suriyanın şimalında Heyət Təhrir əl-Şamın (HTŞ) rəhbərlik etdiyi silahlı müxalif qrupların qısa zamanda hakimiyyəti ələ keçirməsi Rusiya üçün mənfi tendensiya kimi görünür:** "Suriyanın devrilən iqtidarı bundan əvvəlki daxili savaşlarda Rusiyadan böyük hərbi dəstək alsa da, Ukraynadakı müharibə Moskvanın yeni bir cəbhə açaraq qüvvələrini savaşa daxil etməsinin qarşısını aldı. Dünyadakı mövcud reallıqlar Rusiyanın artıq 10 il bundan öncəki kimi Bəşər Əsədi dəstəkləmək potensialında olmadığı anlamına gəlir. Düzdür, Rusiya üsyançılara qarşı müəyyən hava zərbələri endirdi. Lakin bunun formal olduğu aydın idi. Birinci ehtimal ondan ibarətdir ki, 2022-ci ildə başlayan müharibənin uzanması Rusiyanın Cənubi Qafqazda, ümumilikdə isə digər regionlarda hərbi varlığının təbii olaraq azaldığını göstərir. Digər bir versiya isə müxaliflərin sürətli və qısamüddətli uğurları fonunda bu proseslərin əvvəlcə masa arxasında və dialoq vasitəsilə həll edildiyini deməyə əsas verir. Çünki Rusiya kimi maraqları zəifləyən İran və onun müttəfiqi Hizbullah da B.Əsədə ciddi dəstək vermədilər. Halbuki vaxtilə Hizbullah Bəşər Əsədə qarşı mübarizə aparan qüvvələrə qarşı onu dəstəkləmişdi. Göründüyü kimi, Rusiyanın, İranın və ona bağlı qüvvələrin vəd versələr də, Əsədə ciddi dəstək göstərmədikləri müşahidə edildi. Moskva üçün Suriya strateji əhəmiyyət kəsb edirdi. Məsələn, Tartus hərbi dəniz bazası Rusiyanın Aralıq dənizinə çıxışını asanlaşdırır, Hmeymim aviabazası isə Moskvanı bütün regionda effektivliyini və nəzarət mexanizmlərini artırır".

**Ekspert qeyd edib ki, Suriya Rusiyanın böyük güc imicini qoruyub saxlamaq baxımından da önəmlidir:** "Lakin Ukraynada ciddi resurs sərf edən Moskva ola bilər ki, hansısa sövdələşmə qarşılığında oradan çıxmağa razılaşsın. Bunun da nəticələrini bu ilin sonu və ya gələn ilin əvvəlində görə bilərik.

Əvvəldən də bəlli idi ki, Rusiyanın Ukraynadakı problemlərini həll etmədən B.Əsədə yardımı artırması mümkün deyil. Digər tərəfdən, Ukraynadakı müharibə Moskvanın prioriteti olsa da, Rusiya Suriyadan da əl çəkmək niyyətində deyil. Lakin müharibə uzandıqca Ukraynanın Kurskdakı ələ keçirdiyi əraziləri geri qaytara bilməyən Rusiyanın Suriyadakı qüvvələrini də orada saxlaması iqtisadi və hərbi baxımdan uğur vəd etmir. Ümumilikdə isə Rusiyanın Suriyada zəifləməsi onun Ukraynadakı məğlubiyyəti kimi qiymətləndirilməməlidir. Yaxın Şərqdəki proseslər sövdələşmələr və yeni dünya nizamına keçidin bir hissəsi kimi diqqətləri daha çox cəlb edir".

**Şahanə**

# Fransanın "binokullu səfiri" sərhəddə

## Olivye Dekotti özünü küçə uşağı kimi aparır



Bu hadisələr Azərbaycan-Ermənistan arasındakı sülh prosesinə, bölgədə sabitliyin yaranmasına ziyan vurur

**Fransanın Ermənistandakı səfiri Olivye Dekottini Azərbaycanla sərhədə gəlib. Bu barədə Ermənistanla Azərbaycan sərhədindəki AB-nin müşahidə missiyası məlumat yayıb.**

Məlumatda deyilib ki, "Fransanın Ermənistandakı səfirini qərargahımızda qəbul etmək bizim üçün böyük şərəfdir". Səfirə missiyanın işi barədə məlumat verilib: "O, bizim fəaliyyətimizə canlı nəzarət etmək üçün Xaçık kəndinin patrul dəstəsinə də qoşulub". Qeyd edək ki, Dekottini vaxtaşırı olaraq sərhədimizə baxış keçirir.

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, Makron Administrasiyasının aqressiv siyasəti xarici siyasətdə Fransanın imicinə böyük zərər vurdu. Deputatın sözlərinə görə, nəticə etibarı ilə Fransa Orta Afrika və Sakit okean adalarında yerli xalqın üsyanları ilə qarşılaşdı:** "Fransa bəzi ölkələrdən öz ordu birləşmələrini çıxartmağa məcbur qaldı. Eyni zamanda Fransanın Avrasiya məkanında həyata keçirdiyi xarici siyasət də bumeranq kimi Parisin özünə qayıdır. Hazırkı mərhələdə bir sıra Şərqi Avropa ölkələri, o cümlədən Rusiya-Fransa münasibətləri tarixdə olmağı qədər kəskinləşib. Fransanın Qafqaz siyasəti də bənzər xarakter daşıyır. Fransanın Azərbaycana münasibəti, ölkəmizin hüquqlarını bərpa etməsini, tarixi uğurlarını qəbul etməməsi bu dövlətin, əslində, beynəlxalq hüquqa, Avropa dəyərlərinə hörmətsizliyidir, demokratiyaya olan münasibətidir. O baxımdan Fransanın Cənubi Qafqaz siyasəti də iflasa məhkumdur. Son günlərdə fransız səfirin Makronun təşəbbüsü ilə yaradılan və Ermənistana göndərilən Avropa İttifaqının monitorinq missiyası ilə mütəmadi görüşü, bunun xüsusi hal kimi mətbuata ötürülməsi Fransanın imperialist müharibəsinin informasiya komponentidir".

Parlament üzvü vurğulayıb ki, heç şübhəsiz, bu cür davranışlar haqqa, ədalətə və beynəlxalq hüquqa zidd olduğuna görə, mütləq fiaskoya uğrayacaq: "Əslində, fransız səfirin Aİ missiyası ilə görüşü bir növ Fransanın öz-özü ilə "görüşü" kimi qiymətləndirilməlidir. Aİnin "patrul xidməti", "binokl diplomatiyası" siyasi şoudan başqa bir şey deyil. Məsələ ondadır ki, bu hadisələr Azərbaycan-Ermənistan arasındakı sülh prosesinə, bölgədə sabitliyin yaranmasına ziyan vurur. Sülh isə daha çox Ermənistana lazımdır. Beləliklə, Fransa əslində öz müttəfiqi Ermənistana ziyan vurmuş olur".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov "Şərq"ə bildirib ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotti özünü bir diplomatdan daha çox küçə uşağı kimi aparır:** "Artıq bununla neçənci dəfədir ki, o, Azərbaycan əleyhinə boğazdan yuxarı açıqlamalar verir. Eyni zamanda ölkəmizə qarşı yalan dolu iftiralar səsləndirir. Çünki Dekotti Azərbaycana olan düşmənçiliyini özünün həyat missiyasına çevirib. Bütün bunlar bizim üçün məqbul və qəbuledilən hadisə deyil. Güman edirəm ki, Fransanın Ermənistandakı səfirinin Azərbaycanla sərhəddə gedərək Avropa İttifaqının binokl oyunçusu kimi çıxış etməsi rəsmi Bakını qıcıqlandırmaq məqsədi daşıyır. Bu gün Ermənistan ərazilərindəki Avropa İttifaqı missiyası adı altındakı şər yuvası birmənalı şəkildə Fransanın dəstəkləri ilə mövcuddur. Hamı yaxşı bilir ki, orada hansısa mülki missiyadan söhbət gedə bilməz. Sadəcə olaraq ölkəmiz əleyhinə ciddi oyun qurmağa çalışırlar və Ermənistan ərazilərini kəşfiyyat plazdarmına çevirirlər. Görünən odur ki, Fransanın Ermənistandakı səfiri də bu gün üzərinə düşən dırnaqarası vəzifələri yerinə yetirir".

**İsmayıl Qocayev,**
**Şahanə Ziyad**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

**Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi publik hüquqi şəxs yaradılmasından ötən 3 il ərzində ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı istiqamətində nəzərəçarpan irəliləyiş əldə edilib.**

Agentliyin dəstəyi ilə icra olunan böyük, orta və kiçik qrant layihələrinin məzmununa baxdıqda aydın görünür ki, layihələr dövlət və özəl sektor əməkdaşlığı, vətəndaşlara hüquqi, sosial, iqtisadi yardımlar, milli dəyərlərin qorunması, təbliği, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, şəhid, qazi ailələriylə iş, işğaldan azad edilmiş ərazilərdə zəruri tədbirlərin həyata keçirilməsində dövlət qurumlarına dəstək və sair bu kimi əhəmiyyətli sahələri əhatə edir. Məlumdur ki, inkişaf etmiş vətəndaş cəmiyyətində dövlətin funksiyaları ümumi inkşaf strategiyasının işlənməsinə yönəlmiş olur. Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları da xalqın, ictimaiyyətin səsini, mövqeyini, çağırışlarını dünyaya çatdıran vacib seqmentdir. Bu günlərdə İsveçrənin Cenevrə şəhərində BMT-nin irqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 114-cü sessiyasının gedişində də Azərbaycanın vətəndaş cəmiyyəti ölkəmizə, dövlətimizə atılan böhtanlara layiqli cavab verməklə həqiqətləri dünyaya bəyan etdi. Qeyd edək ki, sessiyada iştirak edən Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası və İnsan Hüquqları üzrə Təlim və Tədqiqat İctimai birliyinin nümayəndələri Ermənistanın 12-14-cü dövrü hesabatına alternativ hesabat təqdim edib və hesabat BMT-nin rəsmi veb səhifəsində Ermənistanın dövrü hesabatı ilə birgə yerləşdirilib. Keçirilən brifinqdə də təşkilatların birgə bəyanatı səsləndirilib, komitənin Ermənistan üzrə məruzəçilərinin sualları cavablandırılıb, dəqiqləşmələr aparılıb. Qarabağdan köçən erməni mənşəli şəxslər, müharibə cinayəti törətməkdə təqsirləndirilərək həbs olunmuş ermənilər məsələsinə tam aydınlıq gətirilib. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası və İnsan Hüquqları üzrə Təlim və Tədqiqat İctimai Birliyinin qəbul etdiyi birgə Bəyanatda qeyd edilib ki, Ermənistan dövləti BMT-nin İrqi ayrı-seçkiliyin ləğvi Komitəsinə təqdim etdiyi hesabatda Ermənistan dövlətinin irqi-ayrı seçkilik siyasətindən və fəaliyyətindən bəhs etməmiş, hesabatının əhəmiyyətli hissəsini qonşu dövlətə həsr edərək, saxta, mənbəyi olmayan və həqiqəti əks etdirməyən məlumatları dövrü hesabata daxil edib. Bununla da, Ermənistan dövləti irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə BMT Konvensiyası üzrə öhdəliklərinə dair hesabat dövründə həyata keçirməli olduğu fəaliyyətlər, Komitənin əvvəlki qeyd-şərtləri, irad və tövsiyələri ilə bağlı həyata keçirməli olduğu hüquqi və praktiki fəaliyyətlərdən bəhs etmək əvəzinə, 30 il ərzində zəbt edərək effektiv nəzarət etdiyi ərazilər haqqında saxta və mənbəsiz məlumatlar verməklə Komitənin reqlamentinə uyğun olmayan hesabat təqdim edib. Ermənistan yarım əsr əvvəl etnik müxtəlifliyi ilə seçilən respublika olduğu halda, hazırda dünyanın ən monoetnik dövlətinə çevrilib və hazırda əhalisinin 99 faizə qədərini yalnız bir xalqın nümayəndələri - ermənilər təşkil edir. Sonuncu böyük etnik təmizləmə Ermənistanın müstəqillik əldə etməsindən əvvəl, 1988-ci ildə başlayıb və nəticədə 250 000 (bəzi mənbələrdə 320 000) azərbaycanlı əhali zorla və total şəkildə Ermənistandan deportasiya edilib. Azərbaycanlılarla yanaşı digər xalqların nümayəndələri də "yumuşaq təzyiq" üsulu ilə sıxışdırılaraq köçməyə məcbur edilib. Hazırda öz tarixi vətənlərinə qayıtmaq




# Azərbaycan türklərinin doğma yurda qayıdışı

## QHT-lərin milli irsimizin qorunması istiqamətində fəaliyyəti çox əhəmiyyətlidir

istəyən azərbaycanlılar birləşərək öz icmalarını yaradıb. Lakin rəsmi Ermənistan azərbaycanlıların öz vətənlərinə qayıtması üçün zəruri olan hüquqi və praktiki tədbirləri həyata keçirmir. 1987-1991-ci illərdəki deportasiya zamanı azərbaycanlıların tərk etmək məcburiyyətində qaldıqları Ermənistan ərazilərində azərbaycanlılara məxsus 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi qarət olunaraq dağıdılıb. 223 qəbiristanlıq, 370 məscid, 68 tarixi-memarlıq abidəsi dağıdılıb. Hesabat dövründə də bu proses davam edib. Ermənistanın paytaxtı Yerevan şəhərində Azərbaycan xalqının mədəni irs nümunələrinin son qalıqları da məhv edilib. Hazırda Yerevanın Təpəbaşı adlanan ərazisində Azərbaycan xalqına məxsus olan bütün tarixi tikililərin, dini obyektlərin son qalıqları da məhv edilib və ərazidə yaşayış massivi salınır. İşğal dövründə yüzlərlə mədəni sərvət qəsdən və tamamilə dağıdılıb, zədələnib, talan edilib və tarixi-mədəni xarakterini dəyişmək məqsədilə dəyişdirilməyə məruz qalıb. 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan 2 məscid isə müsəlman dünyasına hörmətsizlik olaraq murdarlanaraq donuz və inək üçün tövlə kimi istifadə edilib. Ermənistan Azərbaycan ərazilərini işğal edərkən 700 000 nəfərdən artıq insanı total və zorakı yolla deportasiya edib. Deportasiya zamanı minlərlə insan məhv edilib. Həmin insanların əksəriyyəti nifrət və irqi zəmində məhv edilib, seksual istismara və qul əməyinə cəlb edilərək məhv edilib, sonradan işğal altında saxladıqları ərazidə kütləvi surətdə dəfn edilib. Ərazilər işğaldan azad edildikdən sonra 18 kütləvi məzar yerləri aşkar edilib. Bəyanatda yer alan suallar arasında "1988-ci ilin dekabr ayına qədər Ermənistanda yaşamış 250 000-dən artıq azərbaycanlıya aid olan və fəaliyyət göstərmiş dini obyektlər, teatr binaları, muzeylərdən hazırda mövcud olanı varmı? Varsa təyinatı üzrə istifadə olunurmu" sualı da var. Ermənistanın 1 əsrdən artıqdır xalqımıza qarşı yürütdüyü milli-irqi düşmənçiliyin beynəlxalq təşkilatlara çatdırılmasında qeyri-hökumət təşkilatlarının rolu danılmazdır. Bu fəaliyyət əzəli yurd yerlərindən deportasiya edilmiş Azərbaycan türklərinin doğma torpaqlara qayıdışı üçün güclü zəmin yaradır. Bu istiqamətdə çalışan vətəndaş cəmiyyətlərindən biri də İnformasiya və Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyidir. Azərbaycan Dillər Universitetinin Xarici Ölkələr Ədəbiyyatı kafedrasının təşkilatçılığı və "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin əməkdaşlığı çərçivəsində "Qərbi Azərbaycan: soyqırıma məruz qalan tarixi-mədəni irsimiz" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universitetinin Xarici Ölkələr Ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Aynur Sabitova çıxışında Qərbi Azərbaycanın xalqımızın tarixi yaddaşında və mədəniyyətində oynadığı əhəmiyyətli rolu vurğulayıb. "Bu torpaqlar yalnız tarixi abidələrlə deyil, həm də xalqımızın mədəni kimliyi ilə bağlıdır. Ermənilər tərəfindən həyata keçirilən vandalizm aktları təkcə bu abidələrin məhv edilməsi deyil, həm də milli kimliyimizə qarşı yönəlmiş məqsədyönlü siyasətdir," - deyə o qeyd edib. A.Sabitova bildirib ki, hər birimiz dövlətimizin həyata keçirdiyi siyasətə öz fəaliyyətimizlə dəstək verməliyik. Bu kontekstdə QHT-lərin milli irsimizin qorunması istiqamətində fəaliyyəti çox əhəmiyyətlidir. QHT Agentliyinin dəstəyi ilə həyata keçirilən layihələr, həmçinin, https://qerbiazerbaycanirsi.az elektron bazası və "Danışır tarix" filmi, milli irsimizin təbliği və qorunması üçün mühüm addımlardır," - deyə Sabitova əlavə edib. İnformasiya və Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri və layihə rəhbəri Cəsarət Hüseynzadə qeyd edib ki, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən "Qərbi Azərbaycanla bağlı informasiya mübarizəsi" layihəsi haqqında məlumat verib. O bildirib ki, bu layihə çərçivəsində elektron baza yaradılıb və "Danışır tarix" filmi hazırlanıb:

> "Ermənistanın 1 əsrdən artıqdır xalqımıza qarşı yürütdüyü milli-irqi düşmənçiliyin beynəlxalq təşkilatlara çatdırılmasında qeyri-hökumət təşkilatlarının rolu danılmazdır"

- Elektron bazada tarixi abidələr haqqında məlumatlar Azərbaycan və ingilis dillərində təqdim olunur. Bazada yerləşmə ərazisinə, növünə və əlifba sırasına görə axtarış sistemi mövcuddur. Hazırda 250-yə yaxın abidə haqqında məlumat elektron bazaya daxil edilib. "Danışır tarix" filmində "Səlim karvansarayı," "Təpəbaşı məscidi" və "Əmir Səəd məqbərəsi" kimi abidələrdən bəhs edir. Azərbaycanın qədim mədəniyyət nümunələrinin məhv edilməsi milli kimliyin izlərini silmək cəhdidir. Beynəlxalq təşkilatlar bu məsələni daha ciddi diqqətə almalıdırlar.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Güzəştli mənzillər 35 saniyə ərzində satıldı

## Yenə evsiz qalanlar həssas qrupların nümayəndələri oldu

**"35 saniyə ərzində güzəştli mənzillərin satışının bitməsi, tələb və təklif arasındakı böyük fərq bu məsələyə bir qədər daha ədalətli yanaşmanı zəruri edir". Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.**



İnsanlara güzəştli mənzil fürsətinin yaradılmasının uğurlu və təqdirəlayiq iş olduğunu vurğulayan ekspert hesab edir ki, prosesin ən böyük çatışmayan tərəfi ev qazanmaq şansını insanların əl bacarıqlarına və istifadə etdikləri avadanlıqların texniki göstəricilərinin öhdəsinə və ya sosial həssaslıqla heç bir əlaqəsi olmayan amillərin öhdəsinə buraxmaqdır: "Yəni bütün proses boyu sosial həssaslıq faktorları nəzərə alınan bir işin ən son həlledici məqamında bu sosial həssaslığın nəzərə alınmadan digər amillərin önə çıxmasını doğru hesab etmirəm.

> Ən son həlledici məqamda sosial həssaslığı nəzərə alınmadan digər amillərin önə çıxması doğru deyil

Çox rahat şəkildə müraciətçilər arasında həssaslıq dərəcəsinin və ehtiyacların qiymətləndirilməsi üçün daha təkmil bir sistem yaradıla bilər. Şərti olaraq bunu, "Ehtiyac Qiymətləndirilməsi Sistemi" adlandıra bilərik. Bu sistem insanların həm həssaslıq dərəcəsini, həm də evlərə olan ehtiyaclarının dərəcəsini qiymətləndirə və sıralaya bilər.

İnsanın iki gözünü də bir-birindən fərqləndirmək olur. Dünyada tam bərabər heç nə yoxdur. Deməli, hər bir həssas qrup nümayəndəsi mütləq digərindən çox həssas və ya az həssasdır. Odur ki, avtomatlaşdırılmış bu sistem ən azı sosial həssaslıq dərəcəsi və ehtiyac dərəcəsi kimi 2 kritertiya üzrə qiymətləndirmə apara bilər. Məsələn, şəhid ailəsi, müəllim, hərbiçi və digər kriteriyalar üzrə qiymətləndirə bilər. Amma əvvəlcə bu həssaslıq dərəcələri çoxdan aza doğru xüsusi dövlət komissiya tərəfindən kodlaşdırılaraq sıralanmalı və yaradılacaq avtomatlaşdırılmış sistem bu əsasdan formalaşmalıdır. Yəni ayrı-ayrı indekslər yaradılır və bu indekslər ən ədalətli sıralamanı təmin edir".

**Ekspert hesab edir ki, ilk növbədə sıralama prosesi həssaslıq dərəcəsinə görə aparılır**: "Eynilik yaranacağı hallarda isə ikinci kriteriyadan istifadə edilməlidir. Bu kriteriya isə "Ehtiyac" kriteriyası olmalıdır. Bu kriteriya üzrə müraciətçinin yaşayış şəraiti, gəlirləri və digər sosial amilləri qiymətləndirilə və sıralana bilər. Tikilən binalar isə sistemin sıralaması əsasında paylana bilər. Şəffaflığın təmin edilməsi üçün isə mütləq bu sıralama bütün digər müraciətçilər üçün açıq olmalıdır. Amma bu zaman bir problem çıxa bilər. Daha az həssas hesab edilən qruplar sıralamada daim geridə qala və mənzillərə sahiblənə bilməzlər. Bu problemi həll etmək üçün isə Avtomatlaşdırılmış Sistem sıraladığı müraciətçiləri həm də qruplar daxilində sıralamalıdır. Bundan sonra mənzillər həmin qruplar arasında mütənasibliklə bölünməlidir. Məsələn, hər 100 mənzildən 30-u Vətən müharibəsi ilə bağlı olan həssas qurplar üçün, 20-si müəllim qrupu üçün, 15-i dövlət qulluqçuları üçün və s. Yuxarıda dediklərim mürəkkəb görünərsə, müraciət olunacağı təqdirdə təkliflərimi daha detallı şəkildə hazırlayaraq təqdim edə və prosesdə şəxsən iştirak edə bilərəm.

Digər daha bir sadə, amma ədalətli variant da mövcuddur. O zaman ya xüsusi sistem lazım deyil, ya indeksləşdirmək. Sadəcə, televiziyada xüsusi qurumların nümayəndələrdən ibarət komissiyanın iştirakı ilə canlı yayımda lotoreya vasitəsilə qaliblərin seçilməsi daha ədalətli olardı. O zaman hər kəsin qalibolma ehtimalı (şansı) bərabər olardı. Ehtimalların bərabər paylanması ədaləti də bərabər paylamış olar".

**Şəymən**

**Suriyada Əsəd rejimini devirərək hakimiyyətə gələn qüvvələr yeni qaydalar tətbiq etməyə başlayıblar. Dəyişikliklərdən biri də Suriya bayrağı ilə bağlıdır.**



Müxalif qruplaşma öz bayrağını hər yerdə Suriyanın yeni bayrağı kimi dalğalandırır. Həmin bayraq üç paralel rəngdən ibarətdir: üstdə yaşıl, ortada ağ və altda qara. Ağ hissədə düz bir xətt boyunca üç qırmızı beşguşəli ulduz təsvir olunub. Əslində, bu bayraq Suriya Ərəb Respublikasının ilk bayrağıdır və 1961-ci ildən 1963-cü ilə qədər istifadə edilib. Suriyada vətəndaş müharibəsi başlayanda Bəşər Əsəd rejiminə qarşı nümayişlərə qatılanlar bu bayraqdan istifadə edirdilər. Suriya Milli Şurasının rəsmisi Xalid Kamal hesab edir ki, bu bayraq həm də müstəqilliyi və Əsəd hökumətinin sonunu təmsil edir. Sözügedən bayraq əsasən Suriya Milli Koalisiyasının nəzarətində olan ərazilərdə istifadə olunur.

# Suriyanın yeni bayrağının tarixi keçmişə dayanır

## Yaşıl rəng Rəşidilər, ağ rəng Əməvilər, qara rəng isə Abbasilər xilafətlərini təmsil edir

**Yaxın Şərq üzrə ekspert Vüqar Ziferoğlu deyib ki, əslində, yeni bayrağın tarixi keçmişi var və ilk dəfə 1930-cu ildə Suriya Respublikasının bayrağı kimi təsdiq olunub. Onun sözlərinə görə, bayraqda yaşıl rəng Rəşidilər, ağ rəng Əməvilər, qara rəng isə Abbasilər xilafətlərini təmsil edir:** "Rəşidilər Peyğəmbərdən sonra xilafət taxtına oturmuş 4 rəşidi xəlifəyə - Əbu Bəkr (632-634), Ömər (634-644), Osman (644-656) və Əlini (656-661) - deyilir. Sonrakı dönəmlərdə isə Əməvi (661-756) və Abbasi (756-1258) sülalələrinin nümayəndələri xilafət taxtına əyləşdilər. Bu mənada bayraqdakı rənglər - məhz xilafət varisliyinə istinad edir. Mərkəzdə olan üç qırmızı ulduz isə Hələb, Dəməşq və Əl-Cəzirə əyalətlərini təmsil edirdi. Sonradan ulduzların mənalandırılmasında ölkədə olan digər regionlar da əlavə edildi. 1930-1958 və 1961-1963-cü illərdə isə Suriya dövlətinin rəsmi bayrağı statusunu qazandı. Bayraq 2011-ci ildən etibarən Bəşər Əsədə qarşı olan qüvvələrin bayrağı kimi istifadə edilirdi".

**İsmayıl**

# Uşaqlar sosial şəbəkələrin əsirinə çevrilib

## Məktəblərdə və evdə şagirdlərin telefonlardan və sosial şəbəkələrdən istifadəsini məhdudlaşdırmaq lazımdır

**Uşaqların düzgün tərbiyəsi bütün dövrlərdə ən aktual mövzu kimi psixoloq, sosioloq, valideyn və müəllimlər tərəfindən mütəmadi olaraq müzakirə edilir.**

Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti - ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar.

Ailədə valideyn-uşaq münasibətlərinin düzgün qurulması üçün valideynlə uşaq arasında davranış qaydalarına riayət edilməsi vacibdir. Bu qaydalara əməl edilmədikdə isə bəzi xoşagəlməz hallarla - uşağın narahat, aqressiv olması, valideyni ilə daim mübahisə etməsi, digər insanlara qoşulması, hətta özünə suiqəsd etmə halları ilə rastlaşırıq.

Hər bir cəmiyyətdə tərbiyə həmin cəmiyyətin başlıca vəzifələrindən birini təşkil edir. İnsan amilinin əsas yer tutduğu hazırkı dövrdə gənc nəslin elmi dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxsiyyət kimi tərbiyə olunması, formalaşdırılması ən vacib, təxirəsalınmaz bir vəzifə kimi qarşıda durur.

Uşaq şəxsiyyətinin formalaşmasında ailə tərbiyəsinin rolu əvəzedilməzdir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə ən mühüm vəzifələrindəndir.



“Bu, onların diqqətini dağıdır, mənfi təsirlərə məruz qalma ehtimalını artırır və təhsilə olan marağını azaldır”

Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir.

**Səhiyyə Nazirliyi Bakı Şəhər Narkoloji Mərkəzinin sosioloqu Fidan Ataxanlı müəyyən davranışlara sahib uşaqların irəliki dövrdə asılılıq formalaşdırma riski digərlərinə nisbətdə daha yüksək ola bilir:** ”Bu davranışlara hiperaktiv və diqqət əskikliyi yaşayan uşaqları misal göstərə bilərik. İmpulsiv hərəkətlər edən və riskli davranışlara meyilli uşaqlar da bura aiddir. Bu uşaqlar və yeniyetmələr riskli və təhlükəli fəaliyyətlərdən həzz alır və daha çox macəra və həyəcan axtarırlar, öz hərəkətlərinin isə nəticələrini düşünmürlər. Emosional vəziyyətin tez-tez və kəskin dəyişməsi halları da diqqəti tələb edir. Belə uşaqlarda narahatlıq, depressiya, əsəbilik və ya həyəcanlanma kimi hallar özünü çox göstərir. Emosional disbalans isə gələcəkdə riskli davranışlara gətirib çıxara bilir. Uşaqların özünə inam və özünə hörmətin aşağı olması onların riskli davranışlara və maddə istifadəsinə yönəldə bilər. Özünü dəyərsiz hiss etmək digər insanların təsirinə daha asan düşmək üçün şərait yarada bilir. Qeyd etmək lazımdır ki, bu davranışların olması qəti olaraq heç bir fikir deməyə əsas vermir. Amma xüsusi bir yanaşma və diqqət tələb edir. Erkən yaşda bu davranışların aşkar və müdaxilə edilməsi uşaqların sağlam, balanslı bir həyat sürməsinə kömək edə bilər”.

**Təhsil eksperti Kamran Əsədov isə ”Şərq”ə açıqlamasında deyib ki, uşaqlar sosial şəbəkələrin təsirindən qorunmalıdır:** ”Texnologiya və sosial şəbəkələr uşaqlarımızın həyatının ayrılmaz hissəsinə çevrilib. Lakin bu onların diqqətini dağıdır, mənfi təsirlərə məruz qalma ehtimalını artırır və təhsilə olan marağını azaldır. Buna görə də, məktəblərdə və evdə şagirdlərin telefonlardan və sosial şəbəkələrdən istifadəsini məhdudlaşdırmaq lazımdır. Xüsusən də məktəbyaşlı uşaqlarda dərs zamanı telefonlardan istifadəyə tam qadağa qoyulmalıdır. Valideynlər evdə sosial media istifadəsini nəzarətə götürməli və vaxt limiti tətbiq etməlidir. Şagirdlər asudə vaxtlarını kitab oxumağa, idmana və digər faydalı fəaliyyətlərə yönəltməlidirlər. Şagirdlərin sağlam zehni inkişafı üçün onları real həyatın dəyərləri ilə tanış etməli və texnologiyanın deyil, bilik və bacarıqların önəmini aşılamalıyıq. Unutmayaq ki, gələcəyimiz onların əlindədir”.

**Şəymən Bayramova**

# Lisenziyasız çalışanların fəaliyyəti dayandırılır

## Plastik cərrahiyyə ilə məşğul olmaq hüququ ali təhsilli həkim plastik cərrahlara aiddir

**Azərbaycanda bir müddət əvvəl 50-yə yaxın estetik cərrahın saxta yollarla bu sahədə çalışması haqqında mediada yayımlanan xəbərlər əlaqədar qurumları hərəkətə gətirib. Bakupost.az-ın əldə etdiyi məlumata görə, artıq aidiyyətə qurumlar həmin cərrahlarla və onları sertifikasiyadan keçirən qurumun məsul şəxsləri ilə bağlı işi nəzarətə götürüb.**

Məlumata görə, həkimlərin ixtisaslarının dəyişdirilməsi, onlara sertifikatlar verilməsi məsələsində xeyli qanun pozuntularının olduğu üzə çıxıb. Yayılan xəbərlərdə qeyd olunan setifikatların 30-50 manat rüşvətlə əldə edilməsinə dair faktların araşdırılmasına başlanılıb. Eyni zamanda səhlənkarlıq, qeyri-peşəkarlıq, insanların sağlamlığına zərər vurmaqda adı daha çox hallanan şəxslərin bu sahədə fəaliyyət göstərmələri ilə bağlı icazələrinin ləğv olunmasına qərar verilib. O da bildirilir ki, müvafiq icazəsi olmadan bu sahədə fəaliyyət göstərən digər cərrahların aşkarlanaraq siyahısının tərtib olunması və onlar barəsində tədbir görülməsi üçün araşdırmalar davam etdirilir. Yaxın vaxtlarda həmin siyahının tədbir görülməsi üçün müvafiq dövlət qurumuna göndəriləcəyi, həmçinin plastik cərrahiyə sahəsində sertifikatlaşdırma qaydalarının sərtləşdiriləcəyi bildirilir.

**Həkim-terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bir müddət əvvəl Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi kimlərin plastik cərrahiyyə ilə məşğul ola biləcəyinə dair geniş izahat verib:**



“Pasiyentlərin həkimin sertifikatını tələb etmək hüququ var. Əməliyyat qərarı vermədən əvvəl araşdırsınlar, görsünlər o həkim harada çalışıb, bu ixtisasın sahibidirmi”

- Mərkəz bildirir ki, plastik cərrahiyyə ilə məşğul olmaq hüququ ali təhsilli həkim plastik cərrahlara aiddir. 2011-ci ildən Azərbaycan Tibb Universitetində və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Plastik cərrahiyyə ixtisası üzrə rezidentura çərçivəsində həkim kadrların hazırlığı aparılır. Müvafiq Qanuna əsasən, Rezidenturada plastik cərrahiyyə ixtisası üzrə təhsilin müddəti 5 il müəyyən edilib. Xaricdə təhsil alan və plastik cərrahiyyə üzrə rezidenturanı bitirən həkimlər Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən öncə Təhsil Nazirliyində diplomun akademik ekvivalentliyi və Səhiyyə Nazirliyində peşə ekvivalentliyi təsdiq edildikdə, praktik cərrahiyə üzrə peşə fəaliyyətlərini davam edə bilərlər. Həmçinin bu ali təhsilə malik mütəxəssislər praktik tibb fəaliyyəti ilə məşğul olduqlarından, beş ildən bir sertifikasiyaya cəlb edilir. Plastik cərrahların çalışdığı müəssisələrdə müvafiq yoxlamalar aparılır. Plastik cərrahiyyə üzrə tibb xidməti 2017-ci ildə Nazirlər Kabinetinin təsdiqlədiyi ”Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı”na daxil edildiyi üçün, bu istiqamətdə fəaliyyət göstərən müəssisələr müvafiq lisenziyaya sahib olmalıdır. Plastik cərrahların çalışdığı müəssisələrdə tibbi xidmətin göstərilməsinə nəzarət, Səhiyyə Nazirliyinin müvafiq qurumları tərəfindən plan üzrə yoxlamalar, həmçinin daxil olan şikayət və təqdimatlar əsasında digər qurumlarla birlikdə plandankənar yoxlamalar şəklində aparılır. Nöqsanlar aşkarlandıqda qanunvericilikdə nəzərdə tutulan qaydada cərimələr tətbiq edilir, lisenziyasız çalışanların fəaliyyəti dayandırılır.

**Ş.Məmmədov bildirdi ki, son illərdə plastik cərrahiyyə dəbə çevrilib. Ehtiyacı olan da, olmayan da, plastik cərrahiyyə etdirir:**

- Biz həmişə deyirik ki, plastik cərrahiyyə gözəllik, xarici görkəmdə zəruri olmayan hər hansı dəyişiklik məqsədi daşımır. Bu əməliyyat insan hansısa qəza keçirdikdə zahiri görkəmində yaranan yaralar, qüsurlar, çapıqlar, yanıqlar və sair insanın normal həyat səviyyəsini aşağı salan hallar baş verdikdə lazım olur. Dünyada elə həkimlər var, xəsarət almış, qəza keçirmiş insanın qolunu, ayağını, barmaqlarını bərpa edir, dərisini yeniləyir, bədənin başqa bir hissəsindən dəri toxumasını zərər görmüş başqa bir hissəyə köçürür. Amma son illərdə dodaq böyütmə, sinə kiçiltmə, burun kəsdirmə kimi əməliyyatlar geniş yayılıb. Təəssüf ki, insanlarımız zəruri ehtiyac olmadan, bir-birinin bəhsinə bu əməliyyatları etdirirlər və bəzən də uğursuz nəticələrlə qarşılaşırlar. Hardasa həkimin adına rast gəlirlər, yaxud rəfiqələrindən kimsə həkimi nişan verir, o da həmin həkimin ixtisasca plastik cərrah olub-olmadığını bilmədiyi halda, müraciət edir. Konkret bir ixtisas ali dərəcədə təhsil almaq, təcrübəyə yiyələnməklə, fərqli ixtisas üzrə illərlə təhsil alıb sonradan ixtisası dəyişib başqa sahəyə yönəlmək arasında böyük fərq var. Pasiyent müraciət etmək istədiyi həkimi yaxşı tanımalıdır, biliyinə, bacarığına, təcrübəsinə bələd olmalıdır. Həm də pasiyentlərin həkimin sertifikatını tələb etmək hüququ da var. Əməliyyat qərarı verməndən əvvəl araşdırsınlar, görsünlər o həkim harada çalışıb, bu ixtisasın sahibidirmi.

**Məlahət Rzayeva**

# Şifrəsiz "Wi-Fi" şəbəkələri həmişə risklidir

## Ən təhlükəsiz variant öz mobil internetinizdən istifadə etməkdir

**DİN ictimai yerlərdəki şifrəsiz vayfay şəbəkələrinə qoşulanlara çağırış edib:**

**- Onlayn alış-veriş və bank əməliyyatlarınızı belə şəbəkələr üzərindən həyata keçirməyin.**

- İstifadə edəcəyiniz ictimai vayfay şəbəkəsinin adını və təhlükəsizlik işarəsini yoxlayın. Qoşulmaq istədiyiniz şəbəkənin düzgün və rəsmi şəbəkə olduğuna əmin olun.

**İnformasiya texnologiyaları üzrə mütəxəssis Elvin Həsənov ”Şərq”ə bildirib ki, şifrəsiz ”Wi-Fi” şəbəkələri həmişə risk daşıyır:** ”Belə şəbəkələrə qoşulmaqla cihazınızda olan məlumatlar, parollar, şəxsi yazışmalar və bank hesablarına giriş təhlükə altına düşə bilər. Şifrəsiz ”Wi-Fi” şəbəkələri məlumatları şifrələmədiyi üçün hakerlər asanlıqla onlayn fəaliyyətinizi izləyə və şəxsi məlumatlarınızı ələ keçirə bilərlər. Məsələn, e-poçt hesabları, sosial media girişləri və hətta bank məlumatları sızdırıla bilər. Dələduzlar çox vaxt saxta ”Wi-Fi” şəbəkələri yaradır və bu şəbəkələrə ”Free Wi-Fi” kimi adlar verirlər. İnsanlar şəbəkənin adını yoxlamadan qoşulduqda, məlumatlar birbaşa həmin cinayətkarların serverlərinə yönləndirilir. Eləcədə bəzi ictimai ”Wi-Fi” şəbəkələri istifadəçilərin cihazlarına avtomatik olaraq zərərli proqramlar yükləyə bilər. Bu proqramlar məlumatları toplaya, cihazı nəzarət altına ala və ya digər kiberhücumlara yol aça bilər. Tövsiyə edirəm ki, şifrəsiz ”Wi-Fi” şəbəkələrindən istifadə edərkən həmişə ehtiyatlı olsunlar. Ən təhlükəsiz variant öz mobil internetinizdən istifadə etməkdir. Əgər ictimai ”Wi-Fi” şəbəkəsinə qoşulmaq zəruridirsə, VPN tətbiqlərindən istifadə etsinlər və şəxsi məlumatlarını qorumağa diqqət yetirsinlər. Yalnız ”HTTPS” protokolu ilə başlayan vebsaytlardan istifadə edin. ”HTTP” ilə başlayan saytlara şəxsi məlumatlar daxil etmək qismən təhlükəlidir”.




**Fidan Həmişəyeva**

# Ekspres marşrutlar dövrün tələbidir

## Bakı-Sumqayıt istiqamətində 594 nömrəli yeni ekspres avtobus marşrutu istifadəyə verilib




“Tıxacı aradan qaldırmaq və insanların rahatlığı üçün hər bir addıma əl atmalıyıq”

**Dünəndən Bakı-Sumqayıt istiqamətində 594 nömrəli yeni ekspres avtobus marşrutu istifadəyə verilib.**

**Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) xəbər verib.**

Məlumata görə, marşrut üzrə müasir və komfortlu avtobuslar fəaliyyət göstərir.

”Sumqayıt Avtovağzalından yola düşən avtobusların son dayanacaq məntəqəsi “20 Yanvar” metrostansiyası müəyyən edilib. Əks istiqamətə isə avtobuslar “20 Yanvar” metrostansiyasının digər çıxışında (Sumqayıt istiqamətinə olan çıxışın yaxınlığında) dayanır. Gedişhaqqı 0,80 qəpik müəyyən olunub”,- deyə məlumatda qeyd edilib.

Qeyd edək ki, Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Sumqayıta 595 nömrəli ekspres avtobuslar fəaliyyət göstərir.

**Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev “Şərq”ə bildirib ki, ekspres avtobusların faydası çoxdur:** “Adından da göründüyü kimi, ekspresdir. Yəni gediş-gəliş zamanı hər dayanacaqda dayanmayacaq və insanlar vaxt itirməyəcəklər. Ümumiyyətlə, öncəki marşrutlar hər dayanacaqda dayandığı üçün vaxt çox gedirdi. Yeni avtobusların nə qədər effektiv olduğunu isə zaman göstərəcək. Ancaq indidən proqnozlaşdırmaq olar ki, effekti çox olacaq. Digər tərəfdən, şəhərin bir neçə istiqamətində də bu addımlar planlaşdırılır. Çünki ekspres marşrutlar dövrün tələbidir. Biz tıxacı aradan qaldırmaq və insanların rahatlığı üçün hər bir addıma əl atmalıyıq. Bu kontekstdə ekspres marşrutların xəttə buraxılması xeyli yüngüllük yaradacaq. Həmçinin avtobus zolaqları çəkildiyinə görə də insanlar rahatlaşıb. Düzdür, bəzi yerlərdə zolaqlar tam deyil, bəzi yerlərdə kəsilir, bəzi yerlərdə isə digər nəqliyyat vasitələri avtobusların yoluna çıxır. Lakin həm avtobus zolağı, həm də yeni marşrutlar vətəndaşları rahat şəkildə gedəcəkləri ünvana vaxtında çatdırmağa müvəffəq olacaq”.

**Fidan Həmişəyeva**

### Elan

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı rabitə və nəqliyyat kollecinin 1-ci kurs tələbəsi Hüseynov Nemət Qafqaz oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı rabitə və nəqliyyat kollecinin 1-ci kurs tələbəsi Babayeva Aysu Tələt qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2882



# Diyarbəkirdə inanılmaz oxşarlıq

## Onu görən hər kəs Əsəd olduğunu düşünür!

**Ötən gün günorta saatlarında Diyarbəkirin Silvan rayonunda telefon mağazasından çıxan şəxs Suriyanın keçmiş prezidenti Bəşər Əsədə bənzəməsi ilə diqqət çəkib.**

"Şərq" xəbər verir ki, telefon mağazası ilə üzbəüz bərbər işləyən Muhterem Tayinmak həmin anları mobil telefonuna çəkərək sosial şəbəkədə paylaşıb. Görüntüyə  minlərlə şərh yazılıb, həmin şəxsin üz cizgiləri və mimikalarının Bəşər Əsədə bənzəməsi diqqət çəkib.

Əsədə oxşayan şəxsin adını Camal kimi tanıdığını deyən Muhterem Tayinmak, "Mağazada oturmuşdum. Yağış yağırdı və mən çölə baxırdım. Telefon mağazasına baxırdım. Dükandan çıxan bir kişi gördüm. Bunun Bəşər Əsədə nə qədər bənzədiyini dedim və videoya çəkdim. Videoda "Dostlar, Diyarbakır Silvanlı Bəşər Əsəd telefon mağazasından çıxır" dedim. Gülməli video kimi paylaşdım, amma olan oldu. Kişi telefon mağazasından çıxıb birbaşa aşağı düşdü. Onun adı Camaldır" deyib.

**Motosikleti ilə yoldan keçərkən Əsədə oxşayan şəxsi gördüyünü deyən Vedat Başar isə qeyd edir:** "Silvanlılar olaraq çox təəccübləndik. Yanından keçəndə də onun sifəti eyni idi. Gedərkən də eyni idi. Motosikletdə, hər kəsin diqqətini o yerə yönəltdiyinə baxdım".

**Turan**

# Gürcüstana keçmək istəyən 4 dost itkin düşdü

## Gənclərin olduğu avtomobilin torpaq altında qalması ehtimal edilir




**Giresunun Bulancak rayonundan Gürcüstana getmək üçün yola çıxan 4 gəncdən xəbər yoxdur.**

Milli.Az Türkiyə mətbuatına istinadən xəbər verir ki, gənclərin olduğu avtomobilin torpaq altında qalması ehtimal edilir.

Qeyd edək ki, Artvinin Arhavi mahalının Kıyıcık məhəlləsində gecə saatlarında sürüşmə baş verib.

Əldə edilən məlumata görə, gənclər rayondan telefon almaq üçün Gürcüstana getmək üçün yola çıxıblar.

Axtarma işləri davam edir.

# Küçədə yatır...

## 17 yaşlı ulduz "evsiz" qalıb



**Marvel-in aktyoru Cek Veal 17 yaşında evsiz qalıb.**

İlk mövsümdə Disney serialı "Loki"də Tom Hiddlestonun kiçik versiyasında baş qəhrəman Loki obrazını canlandıran britaniyalı aktyor bazar ertəsi yayımladığı TikTok videosunda vəziyyətini ətraflı izah edib. Videoda 17 yaşlı aktyor hazırda evsiz olduğunu və kömək istədiyini bildirib.Cek Veal 3 dekabr Instagram hesabında yayımladığı video ilə çətin həyat şərtlərini və psixi sağlamlıq problemlərini paylaşıb.

Aktyor hazırda karvanda yaşadığını və bəzən küçədə yatmaq məcburiyyətində qaldığını açıqlayıb.

O,  "Həyatımda baş verənlər haqqında çox danışmadım, amma düşünürəm ki, həqiqəti üzə çıxarmağın vaxtıdır. Təfərrüatlara çox da varmadan, evdə zorakılığa məruz qaldım. Fiziki zorakılıq, emosional zorakılıq  və s." sözlərini deyib.

# Polis şöbəsində dindiriləcək

## İkardinin keçmiş arvadı barəsində istintaq başladıldı



**"Qalatasaray"ın ulduz futbolçusu Mauro İkardinin keçmiş həyat yoldaşı Vanda Nara barəsində istintaq başladılıb.**

Milli.Az xarici mətbuata istinadla xəbər verir ki, qanunsuz mərc oyunlarına təşviq etməkdə ittiham edilən Vanda Naranın instagram profilində təbliğ etdiyi onlayn kazinonun Buenos-Ayres şəhərində və ya Argentinanın heç bir əyalətində lisenziyası olmadığı müəyyən edilib. Bu səbəblə o, polis şöbəsində dindiriləcək. Görüş dekabrın 17-də olacaq.

# Məşhur cütlük "Formula 1" yarışını izləyiblər



**Türkiyəli məşhur cütlük Burak Özçivitlə Fahriyə Evcən Rusiyadan sonra Birləşmiş Ərəb Əmirliklərinə yollanıblar.**

Cütlük Əbu-Dabidə təşkil olunan "Formula 1" yarışını izləyiblər.

*Qeyd edək ki, Burakla Fahriyə daha əvvəl serial çəkilişləri üçün Moskvada idi.*



# Ultra zəngin ailələrin uşaqları

## Hamısının problemi eynidir





**Aprajita Anand Nyu-Yorkda ultra zəngin ailələrin uşaqları üçün həyat məşqçisi (layf-kouçinq) kimi çalışır. 41 yaşlı Anand onun yanına göndərilən və məsləhət verməsi istənilən bu uşaqların hamısının eyni problemlər yaşadığını deyib. "Şərq" "tr.mashable.com"a istinadən bildirir ki, "Business Insider"də məqalə ilə çıxış edən A.Anand 12 ildir ultra-zəngin uşaqların həyat məşqçisi olduğunu yazıb:**

"Bu karyera səyahətinə çox təbii başladım. Nyu-Yorkda varlı tələbələrlə fərdi müəllim kimi işlədiyim zaman anladım ki, bu uşaqlar çox dərin emosional problemlər yaşayırlar. Cəmiyyət, ümumiyyətlə, bu uşaqları rəğbətə layiq olmayan "ərsiz varlı uşaqlar" kimi görür və məncə, bu düşüncə tərzi onların diqqətdən kənarda qalan bir cəmiyyətə çevrilməsinə səbəb olur. Buna görə də mən həyat məşqçliyinə başladım və karyeramı tələbələrimə, yəni yeniyetmələrə və gənclərə kömək etməyə, onların bu zənginliklə gələn problemlərini idarə etməyə həsr etdim". Müəllif qeyd edib ki, problemlər adətən imtina, uğursuzluq və ya pulun həll edə bilməyəcəyi bir çətinliklə qarşılaşdıqda başlayır. Bu problemlərin bir çoxu sosial - boşanma, dostlar qrupundan kənarlaşdırılma və ya irqçilik kimi daha sistemli problemlərdir. Şok reaksiyaları tez-tez sosial media, video oyunlar, narkotiklər, onlayn alış-veriş və ya digər davranışlarla özlərini uyuşduraraq təhsil, sosial və ailə həyatından uzaqlaşma ilə müşayiət olunur. Valideynlərin ilk reaksiyası adətən uşaqlarını psixoloq və ya psixiatra göndərmək olur. Mən terapiyanın faydalarına inanıram, lakin bəzi hallarda bu uşaqlar öz duyğuları ilə nə edəcəklərini bilmədiklərindən daha da itmiş və ümidsiz ola bilərlər. Dünyada hər cür üstünlüklərə sahib olduqları halda bu çətin hisslərdən necə xilas ola bilməyəcəklərini soruşa bilərlər; Bu, onları bu uyuşdurucu davranışları daha da dərinləşdirməyə sövq edə bilər. Bu, valideynlərin övladlarını mənim yanıma gətirdiyi məqamdır". Müəllif 3 vacib addımı qeyd edib: "Birincisi, daxili nəzarət məntəqəsinə keçiddir. Onlara müxtəlif vəziyyətlərdə necə reaksiya verəcəklərini seçə biləcəklərini başa salmaq lazımdır. Düşüncə tərzi dəyişərsə, onlara dəstək olmaq mümkündür. İkinci addım daxili motivasiyanın tapılmasıdır. Mən tələbələrimə hazırda olduqları mühitdə müsbət cəhətləri kəşf etməyə və onlara zövq verən fəaliyyətlərdə iştirak etməyə təşviq edirəm. Onlar yavaş-yavaş özlərini cəmiyyətin bir hissəsi kimi hiss etməyə başlayırlar. Üçüncü addım başqalarına kömək etməkdir. Tələbələrim heç vaxt çalışmamış, başqaları haqqında düşünməmiş insanlardır. Ancaq özləri haqqında düşünməyə sərf etdikləri vaxt yorucu ola bilər. Tələbələrimə başqalarına faydalı ola biləcək şeylər etməyi təklif edirəm. Məsələn, dərnək və ya fondda könüllü olmaq və ya ev işlərinə kömək etmək. Başqalarına kömək etmək şəxsi problemləri bir kənara qoyub kiminsə həyatına toxunmaq deməkdir. Bu, onları həyata bağlayır".

**Məlahət**



# Santa Klaus əslində keşiş olub

## Sirlər 1700 il sonra ortaya çıxdı



**"Əsl Santa Klausun görünüşü necədir, kimə bənzəyir" sualına nəhayət cavab tapılıb. "Şərq" "tr.mashable.com"a istinadən bildirir ki, Santa Klausun üzü 1700 il əvvəl Şaxta baba konsepti yepiskop, Likiyada (Antaliyada qədim şəhər) doğulmuş Müqəddəs Nikolayın kəllə sümüyü əsasında hazırlanıb. Bu görüntünü əldə etmək 3D formatı sayəsində mümkün olub. 3D formatında Santa Klaus Müqəddəs Nikolayın simasıyla eynidir.**

Tədqiqatın aparıcı müəllifi Cicero Moraes, IV əsr müqəddəsinin üzünün "statistik proqnozlar" və "bədii" şərhlərdən istifadə edilərək yenidən yaradıldığını, Şaxta babanın geniş alın, nazik dodaqlar və yuvarlaq buruna sahib olduğunu bildirib. O, eramızın 343-cü ildə, fotoqrafiya ixtirasından çox əvvəl vəfat etsə də, 3D təsvirlər Santa Klausun üzündə həm "güclü", həm də "zərif" ifadənin olduğunu göstərir. "Kəllə çox möhkəm bir quruluşa malikdir və onun üfüqi oxdakı ölçüləri orta səviyyədən yüksəkdir, bu da güclü üz ifadəsi yaradır" dedi Moraes, "Qalın saqqal ilə birləşən bu xüsusiyyət Santanın fiqurunu çox xatırladır". Yalnız tərbiyəli, sözə baxan uşaqlara hədiyyələr verən Miralı Müqəddəs Nikolay (Likiyadakı qədim yaşayış məskənlərindən biri olan Mira) əvvəlcə Hollandiyanın xalq siması Sinterklaas, sonra isə Şaxta baba obrazına çevrilib. ABŞ-da uşaqlara oyuncaq gətirən şən, kirşə sürən qoca ilham mənbəyi oldu. Moraes, elmi şəkildə yaradılmış şəkillərin Şaxta babanın "çəhrayı yanaqları", "enli üzləri" və "albalı kimi burnu" kimi xüsusiyyətlərini təsvir edən 1823-cü il "Miladdan əvvəlki gecə" şeirindəki təsvirlərlə təəccüblü şəkildə üst-üstə düşdüyünü ifadə edib. Onun qalıqlarını tədqiq etdikdən sonra, Müqəddəs Nikolayın qalın kəllə sümüyü onurğa və çanaqda xroniki artrit və ola bilsin ki, tez-tez baş ağrılarına səbəb olur. Alimlər həmçinin Nikolayın bitki əsaslı pəhrizlə yaşadığını da qeyd ediblər. Müqəddəs Nikolay əvvəlcə Türkiyənin Mira şəhərində dəfn edilsə də, sonradan onun sümükləri İtaliyanın Bari şəhərinə aparılıb. Həmin gündən onun məzarı hələ də oradadır. Moraes Şaxta babanın üzünün rekonstruksiya prosesini belə izah edib: "Əvvəlcə əlimizdə olan məlumatlardan istifadə edərək kəllə sümüyünün 3D modelini yaratdıq. Daha sonra anatomik deformasiya texnikasından, canlı insanın virtual donor kimi tomoqrafik görüntüsündən istifadə edərək, biz bunu tənzimlədik. Təsviri o müqəddəsin kəlləsinə uyğunlaşdırdıq. Nəhayət, bütün bu məlumatları birləşdirərək, anatomik və statistik uyğunluğu müşahidə edərək, son üz modelini əldə etdik".

**Məlahət**

# Zarafat deyil

## Alimlər planeti xilas etmək üçün heyvanların qazını ölçəcəklər



**Məqsəd daha az metan buraxan bitki növlərini müəyyən etmək və onları heyvan yeminə daxil etməklə qlobal istiləşmə ilə mübarizə aparmaqdır.**

Kolumbiyanın cənub-qərbində yerləşən tədqiqat mərkəzindəki böyük metal otaqların ilk baxışdan soyuducuları xatırlatdığını söyləyə bilərik. Beton döşəmələr, pleksiglas pəncərələr və divara quraşdırılmış kondisionerlərlə əhatələnən bu otaqlar çox fərqli məqsəd daşıyır: heyvanların buraxdığı qazları ölçmək.

"Şərq" xəbər verir ki, burada çalışan alimlərin məqsədi qoyunlardan gələn qazın tərkibini təhlil etməkdir. Yanvar ayında heyvanlar bu otaqlara yerləşdiriləcək və onların 24 saat gəyirdiyi qazlar yüksək texnologiyalı maşınlarla ölçüləcək. Məqsəd daha az metan buraxan bitki növlərini müəyyən etmək və onları heyvan yeminə daxil etməklə qlobal istiləşmə ilə mübarizə aparmaqdır.

Təcrübələrdə istifadə olunacaq bitkilər yaxınlıqdakı "Gələcək toxumlar" adlı gen bankından götürülür. Bu bankda 67 mindən çox bitki nümunəsi saxlanılır; Bunların əksəriyyəti tropik otlar və paxlalı bitkilərdir. Toxumlar -23°C-yə qədər soyudulmuş vakuumla bağlanmış alüminium torbalarda saxlanılır.

Layihənin birinci mərhələsində toxumlar laboratoriyada sınaqdan keçirilir. Tədqiqatçılar gövşəyən heyvanın mədəsini təqlid edən sınaq borularına yem yerləşdirməklə nə qədər metan ayrıldığını ölçürlər. Daha sonra qoyunlara metan istehsalı az olan və qida dəyəri yüksək olan yemlər verilir. Son nəticə qoyunların qazı və nəcisini analiz etməklə əldə edilir.

Metan qazı qlobal istiləşmənin 20-30 faizinə cavabdehdir. Heyvandarlıq sektoru metan emissiyalarının ən böyük mənbəyidir; Bu qazın böyük hissəsi iribuynuzlu mal-qara, qoyun və keçi kimi gevişən heyvanlardan gəlir. Metan emissiyalarını azaltmadan dünyanı 1,5°C temperatur artımı həddində saxlamaq mümkün deyil.

Tədqiqatçıların ümid bağladıqları bitkilər, ümumiyyətlə, paxlalı bitkilərdir. Məsələn, Leucaena diversifolia adlı bitki metan əmələ gətirən mikrobları sıxışdıran maddə olan taninlə zəngindir. Üzüm giləmeyvələrində də tapılan tanin, bu bitkiləri heyvanların qidalanmasında ekoloji cəhətdən təmiz bir seçim edir.

Yüksək texnologiyalı yem əlavələri və ya metanı azaldan vaksinlər kimi həllər də hazırlanır. Bununla belə, bu texnologiyalar çox vaxt baha başa gəlir və inkişaf etməkdə olan ölkələrdə fermerlər üçün əlçatmazdır. CIAT-ın (Beynəlxalq Tropik Kənd Təsərrüfatı Mərkəzi) sadə yem mərkəzli layihəsi istənilən ölkədən olan fermerlərə tətbiq oluna bilər və adi heyvan qidalanma planı qədər asandır.

Qoyun qazının ölçülməsi zarafat kimi görünsə də, ciddi elmdir. Mütəxəssislərdən biri bunu belə yekunlaşdırır: "Gülməlidir, çünki danışdığımız mövzu gövşəyən heyvanlardır. Amma bu, çox vacib məsələdir. Əgər fermerlər və alimlər bu məsələdə birlikdə çalışsalar, biz dünyanı daha yaxşı bir yerə çevirə bilərik".

**Turan**